# Bank of Baku
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2007-ci il tarixinə bitən il üzrə
**Maliyyə hesabatları**

## BANK OF BAKU AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MÜNDƏRİCAT


| | Səh |
|---|---|
| MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2007-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Mənfəət və zərər haqqında hesabat | 4 |
| Balans | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatlarına qeydlər | 9-51 |

# 31 DEKABR 2007-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT

Maliyyə hesabatları ilə bağlı "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") və müstəqil auditorların məsuliyyətini fərqləndirmək üçün aşağıdakı izahat təqdim edilmişdir. Bu izahat hazırki hesabatın 2-ci və 3-cü səhifələrində müstəqil auditorların vəzifələrini şərh edən müstəqil audit rəyi ilə birlikdə oxunmalıdır.

Rəhbərlik Bankın 31 dekabr 2007-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişikliklər hesabatını düzgün əks etdirən və Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara məsuldur:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- MHBS-un tələblərinə uyğunluğuna və maliyyə hesabatlarında əks olunan qeydlərdə hər hansı bir MHBS-dən mühüm kənarlaşmalar üzrə açıqlamalara və izahatlara; və
- Bankın öz fəaliyyətinin davam etdirilməsinin mümkün olmaması istisna olmaqla təxmin edilə bilən dövr ərzində maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Bankda effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Bankın maliyyə vəziyyətini istənilən zaman lazımi dərəcədə dəqiq açıqlayan və onun maliyyə hesabatlarının MHBS-ın tələblərinə uyğun olduğuna təminat verən mühasibat uçotu sisteminin hər zaman dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat uçotunun Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına uyğun aparılmasına;
- Bankın aktivlərinin mühafizə edilməsi üçün öz səlahiyyətləri daxilində mümkün tədbirlərin görülməsinə;
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2007-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması 10 iyul 2008-ci il tarixdə İdarə heyəti tərəfindən təsdiq olunmuşdur.

**İdarə Heyəti tərəfindən**

| | |
|---|---|
| **Cəlal Qasımov**<br>**Sədr** | **Marina Tedeyeva**<br>**Baş mühasib** |
| *10 iyul 2008-ci il* | *10 iyul 2008-ci il* |

Deloitte.

Deloitte & Touche MMC
8-ci mərtəbə
Ləndmark III
Xaqani küç. 45A
Bakı, AZ1010
Azərbaycan
Tel: +994 (0) 12 598 2970
Faks: +994 (0) 12 598 2975
www.deloitte.az

# MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

**Maliyyə hesabatları üzrə hesabat**

Biz "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") 31 dekabr 2007-ci il tarixinə hazırlanmış balansdan və həmin tarixdə bitən il üzrə mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər haqqında hesabatlardan, habelə əsas mühasibat uçotu siyasətlərinə dair icmaldan və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Bankın rəhbərliyi maliyyə hesabatlarının Maliyyə Hesabatının Beynəlxalq Standartları əsasında hazırlanmasına və düzgün təqdimatına cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə bunlar daxildir: saxtalaşdırılmaya və mühüm təhriflərə yol vermədən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdimatı üçün daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılması; müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi; şəraitə müvafiq mühasibat qiymətləndirilmələrinin həyata keçirilməsi.

**Auditorların məsuliyyəti**

Bizim vəzifəmiz apardığımız audit əsasında maliyyə hesabatları haqqında rəy bildirməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirdik. Həmin standartlar tələb edir ki, biz etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks etdirilmiş məlumatlarda əhəmiyyətli səhvlərin olmadığına kifayət qədər əmin olaq.

Audit zamanı maliyyə hesabatlarında göstərilən rəqəmləri və açıqlamaları təsdiq edən auditor sübutlarının əldə edilməsi üçün prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsindən, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm təhrif risklərinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin riskləri qiymətləndirərkən, auditor şəraitə münasib olan auditor prosedurlarının layihələşdirilməsi məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə bağlı olan daxili nəzarət sistemini nəzərdən keçirir, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin effektivliyi haqqında rəy bildirmək məqsədi qoyulmur. Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin müvafiqliyinin və həyata keçirilmiş mühasibat qiymətləndirilmələrinin düzgünlüyünün, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının təhlili daxildir.

Hesab edirik ki, apardığımız audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

Deloitte.

Rəy

Fikrimizcə, bu maliyyə hesabatları 31 dekabr 2007-ci il tarixinə "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun əks etdirir.

Deloitte & Touche.

10 iyul 2008-ci il
Bakı

## BANK OF BAKU AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2007-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

*(Manatla göstərilən hər səhm üzrə gəlirlər istisna olmaqla, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|---|
| Faiz gəliri | 4, 25 | 17,842 | 8,630 |
| Faiz xərci | 4, 25 | (7,925) | (2,756) |
| FAİZ HESABLANAN AKTİVLƏR ÜZRƏ DƏYƏRSİZLƏŞMƏ ZƏRƏRLƏRİ ÜÇÜN EHTİYATIN YARADILMASINDAN ƏVVƏL XALİS FAİZ GƏLİRİ | | 9,917 | 5,874 |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat | 5, 25 | (2,537) | (862) |
| XALİS FAİZ GƏLİRİ | | 7,380 | 5,012 |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 6 | 462 | 521 |
| Haqq və komissiya gəliri | 7, 25 | 3,616 | 2,535 |
| Haqq və komissiya xərci | 7 | (1,353) | (699) |
| Alınmış dividentlər | | 29 | 14 |
| Digər gəlirlər | 8 | 227 | 128 |
| XALİS QEYRİ-FAİZ GƏLİRİ | | 2,981 | 2,499 |
| ƏMƏLİYYAT GƏLİRLƏRİ | | 10,361 | 7,511 |
| ƏMƏLİYYAT XƏRCLƏRİ | 9, 25 | (6,686) | (3,944) |
| Digər əməliyyatlar üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat | 5 | (15) | (17) |
| MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT | | 3,660 | 3,550 |
| Mənfəət vergisi xərci | 10 | (852) | (758) |
| XALİS MƏNFƏƏT | | 2,808 | 2,792 |
| HƏR SƏHM ÜZRƏ GƏLİR *Əsas və azaldılmış (Manatla)* | 11 | 0.83 | 0.82 |

**İdarə Heyəti tərəfindən**

**Cəlal Qasımov**
**Sədr**

*10 iyul 2008-ci il*
*Bakı*

**Marina Tedeyeva**
**Baş mühasib**

*10 iyul 2008-ci il*
*Bakı*

9-51-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## BANK OF BAKUAÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**31 DEKABR 2007-Cİ İL TARİXİNƏ**
**BALANS**
*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Nağd pul və Azərbaycan Respublikasının Milli Bankındakı qalıq vəsaitlər | 12 | 12,721 | 9,827 |
| Banklardan alınacaq vəsaitlər | 13 | 5,125 | 4,430 |
| Müştərilərə verilmiş kreditlər | 14, 25 | 118,992 | 46,574 |
| Satıla bilən investisiyalar | 15 | 2,160 | 5,179 |
| Əmlak və avadanlıq | 16 | 12,079 | 4,206 |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivləri | | - | 541 |
| Digər aktivlər | 17 | 920 | 436 |
| **CƏMİ AKTİVLƏR** | | **151,997** | **71,193** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər | 18 | 57,881 | 12,234 |
| Müştəri hesabları | 19, 25 | 64,452 | 41,781 |
| Buraxılmış borc qiymətli kağızları | 20 | 6,153 | 3,103 |
| Cari mənfəət vergisi öhdəlikləri | | 263 | 270 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 10 | 1,945 | 404 |
| Cəmi öhdəliklər | 21, 25 | 884 | 429 |
| Cəmi öhdəliklər | | 131,578 | 58,221 |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 22 | 6,800 | 6,800 |
| Yenidənqiymətləndirmə ehtiyatı | | 7,097 | 1,658 |
| Bölüşdürülməmiş mənfəət | | 6,522 | 4,514 |
| Cəmi kapital | | 20,419 | 12,972 |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **151,997** | **71,193** |

**İdarə Heyəti tərəfindən**

**Cəlal Qasımov**
**Sədr**

*10 iyul 2008-ci il*
*Bakı*

**Marina Tedeyeva**
**Baş mühasib**

*10 iyul 2008-ci il*
*Bakı*

9-51-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## BANK OF BAKU AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2007-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Yenidənqiymət-ləndirmə ehtiyatı | Bölüşdürül-məmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2005-ci il** | 6,800 | 1,732 | 3,104 | 11,636 |
| Yenidən qiymətləndirmə gəlirinin amortizasiyası, 23 min manat məbləğində təxirə salınmış vergi çıxılmaqla | | (74) | 97 | 23 |
| Elan olunmuş dividentlər | - | - | (1,479) | (1,479) |
| Xalis mənfəət | - | - | 2,792 | 2,792 |
| **31 dekabr 2006-cı il** | 6,800 | 1,658 | 4,514 | 12,972 |
| Yenidən qiymətləndirmə gəlirinin amortizasiyası, təxirə salınmış vergi çıxılmaqla | - | (117) | 117 | - |
| Əmlak və avadanlığın yenidən qiymətləndirilməsi, 1,567 min manat məbləğində təxirə salınmış vergi çıxılmaqla | - | 5,556 | - | 5,556 |
| Elan olunmuş dividentlər | - | - | (917) | (917) |
| Xalis mənfəət | - | - | 2,808 | 2,808 |
| **31 dekabr 2007-ci il** | **6,800** | **7,097** | **6,522** | **20,419** |

**İdarə Heyəti tərəfindən**

**Cəlal Qasımov**
**Sədr**

*10 iyul 2008-ci il*
*Bakı*

**Marina Tedeyeva**
**Baş mühasib**

*10 iyul 2008-ci il*
*Bakı*

9-51-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## 31 DEKABR 2007-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 3,660 | 3,550 |
| Düzəlişlər: | | | |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat | | 2,537 | 862 |
| Digər əməliyyatlar üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatın bərpası | | 15 | 17 |
| Tanınmamış zərər və qiymətli kağızlar üzrə diskontun amortizasiyası | | - | (21) |
| Xarici valyuta əməliyyatları üzrə köçürmə zərəri | | 42 | 92 |
| Buraxılmış qiymətli kağızlar üzrə diskontun amortizasiyası | | 625 | 103 |
| Divident üzrə gəlir | | (29) | (14) |
| Köhnəlmə və amortizasiya xərci | | 663 | 486 |
| Əsas vəsaitlərin silinməsindən zərər | | 3 | 30 |
| Hesablama üsulu ilə göstərilmiş faizlərdə xalis dəyişiklik | | 1,363 | 233 |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri | | 8,879 | 5,338 |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər | | | |
| Əməliyyat aktivlərində (artım)/azalma: | | | |
| Azərbaycan Respublikası Milli Bankında məcburi ehtiyat depoziti | | (1,927) | (2,261) |
| Banklardan alınacaq vəsaitlər | | (1,751) | 1,914 |
| Müştərilərə verilmiş kreditlər | | (73,992) | (22,264) |
| Digər aktivlər | | (502) | (171) |
| Əməliyyat öhdəliklərində artım/(azalma): | | | |
| Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər | | 44,548 | 5,602 |
| Müştəri hesabları | | 21,366 | 9,478 |
| Digər öhdəliklər | | 323 | (765) |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin məxarici | | (3,056) | (3,129) |
| Ödənilmiş mənfəət vergisi | | (885) | (1,277) |
| Əməliyyat fəaliyyətlərindən yaranan xalis pul vəsaitlərinin məxarici | | (3,941) | (4,406) |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak və avadanlığın alınması | | (860) | (956) |
| Satıla bilən investisiyalar üzrə gəlir | | 97,389 | 70,478 |
| Əmlak və avadanlığın satışından gəlir | | 3 | 25 |
| Satıla bilən qiymətli kağızların alınması | | (94,368) | (72,010) |
| Alınmış dividentlər | | 29 | 14 |
| İnvestisiya fəaliyyətlərindən yaranan xalis pul vəsaitlərinin mədaxili/(məxarici) | | 2,193 | (2,449) |

## 31 DEKABR 2007-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (DAVAMI)

*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|---|
| **MALİYYƏ FƏALİYYƏTLƏRİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Borc qiymətli kağızlarının buraxılmasından gəlir | | 2,376 | 3,000 |
| Ödənilmiş dividentlər | | (648) | (1,313) |
| Maliyyə fəaliyyətlərindən yaranan xalis pul vəsaitlərinin mədaxili | | 1,728 | 1,687 |
| *Nağd pul vəsaitlərinə və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnəsindəki dəyişikliklərin təsiri* | | (42) | (166) |
| NAĞD PUL VƏSAİTLƏRİNDƏ VƏ NAĞD PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS AZALMA | | (62) | (5,334) |
| İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏSAİTLƏRİ VƏ NAĞD PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ | 12 | 6,607 | 11,941 |
| İLİN SONUNDA NAĞD PUL VƏSAİTLƏRİ VƏ NAĞD PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ | **12** | **6,545** | **6,607** |

31 dekabr 2007-ci il tarixdə bitən il ərzində Bank tərəfindən ödənilmiş və alınmış faiz məbləği müvafiq olaraq 5,581 min manat və 16,902 min manat təşkil etmişdir.

31 dekabr 2006-cı il tarixdə bitən il ərzində Bank tərəfindən ödənilmiş və alınmış faiz məbləği müvafiq olaraq 2,553 min manat və 8,248 min manat təşkil etmişdir.

**İdarə Heyəti tərəfindən**

**Cəlal Qasımov**
**Sədr**

*10 iyul 2008-ci il*
*Bakı*

**Marina Tedeyeva**
**Baş mühasib**

*10 iyul 2008-ci il*
*Bakı*

9-51-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## 1. BANK HAQQINDA ÜMUMİ MƏLUMAT

18 fevral 2005-ci il tarixdə Bank of Baku Açıq Səhmdar Kommersiya Bankı ("Bank of Baku") və İlkBank Qapalı Səhmdar Kommersiya Bankı ("İlkBank") birləşdilər və Açıq Səhmdar Kommersiya Bankı olan Bank of Baku yarandı ("Bank"). Bank ARMB-dan 247 saylı yeni bank lisenziyasını almışdır. Bankın səhmdar kapitalı Bank of Baku və İlkBank tərəfindən bərabər həcmdə qoyulmuş vəsait hesabına formalaşmışdır. Bank hər iki bankın hüquqi varisidir. Bankın dövlət qeydiyyatından keçmiş ünvanı aşağıdakıdır: Atatürk prospekti 42, Bakı AZ1069, Azərbaycan. 15 may 2006-cı il tarixdə Bank of Baku Açıq Səhmdar Kommersiya Bankı statusunu Açıq Səhmdar Bankı statusuna keçirmişdir. Bankın əsas biznes fəaliyyətləri kommersiya və ayrı-ayrı bank əməliyyatlarından ibarətdir.

Bankın baş ofisi bütün növ kommersiya və ayrı-ayrı bank əməliyyatları həyata keçirir. 31 dekabr 2007-ci il tarixinə Bankın Azərbaycanda 14 filialı və 3 xidmət məntəqəsi olmuşdur (2006: 9 filial və 3 xidmət məntəqəsi).

31 dekabr 2007 və 2006-cı il tarixlərinə Bankın səhmdar kapitalının strukturu aşağıdakı kimi olmuşdur:

| | Təsisçi payı, % |
|---|---|
| NAB Holding | 40.00 |
| Azpetrol Neft Şirkəti MMC | 28.89 |
| Cənab R.Əliyev | 11.22 |
| Cənab E. İsayev | 10.00 |
| Azinvest MMC | 9.89 |
| | **100.00** |

Nab Holdinq şirkətinin son səhmdarları Nader Mohaqleh Oromi, Bahram Mohaqleh Oromi, Şahram Mohaqleh Oromidir; Azpetrol Neft Şirkəti MMC-nin son səhmdarı Məmmədov İbrahim, Azinvest MMC şirkətinin son səhmdarı isə Rafiq Əliyevdir.

19 oktyabr 2005-ci il tarixdə Bankın səhmdarlarından biri olan R.Əliyev həbs olunmuş və daha sonra ona qarşı məhkəmə işi qaldırılmışdır. Bu maliyyə hesabatlarının buraxıldığı tarixə heç bir məhkəmə dinlənilməsi olmamışdır. Cənab Əliyevin saxlanılmasının Bankdakı payı və ya işləri ilə əlaqəsi yoxdur. Daha sonra, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikası Milli Bankı Bankın əməliyyatlarının müstəqil auditini həyata keçirmişdir. Bu auditlər 2006-cı ilin fevral ayında başa çatdırılmış və Bankın əməliyyatlarında qanunauyğun olmayan heç nə aşkar etməmişdir. Bu hadisələr zamanı Bank heç bir fasilələr olmadan öz normal iş fəaliyyətini davam etdirmişdir.

Cənab R.Əliyev Bankın səhmdar kapitalının 21.11%-nə (bunun 11.22%-nə birbaşa , 9.89%-nə Azinvest MMC vasitəsilə) malikdir.

Maliyyə hesabatlarının buraxılması 10 iyul 2008-ci il tarixdə İdarəetmə Heyəti tərəfindən təsdiq olunmuşdur.

## 2. TƏQDİMATIN ƏSASLARI

### Mühasibat uçotunun əsasları

Bankın maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən buraxılan Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsi ("BMHŞK") tərəfindən buraxılan Şərhlərə uyğun olaraq hazırlanmışdır.

Bu maliyyə hesabatları hər hansı başqa qeydlər olmazsa, Azərbaycan manatı ilə təqdim olunmuşdur. Bu maliyyə hesabatları "Əmlak, tikili və avadanlıq" haqqında 16 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartlarına ("MUBS") uyğun olaraq bəzi maliyyə alətlərinin ədalətli dəyərlə qiymətləndirilməsi və binaların yenidən qiymətləndirilən məbləğlərlə ölçülməsi istisna olmaqla, tarixi dəyər prinsipi əsasında hazırlanmışdır.

Bank mühasibat uçotunu əksər hallarda MHBS-ə uyğun olan Azərbaycanın yerli qanunvericiliyi əsasında aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu qanunvericiliyi əsasında hazırlanmış və MHBS-ə uyğunlaşdırılmışdır. Bu düzəlişlər əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələri, o cümlədən, bəzi aktivlərin və öhdəliklərin, gəlirlərin və xərclərin maliyyə hesabatı üzrə yenidən təsnifləşdirilməsini özündə birləşdirir.

### Əsas proqnozlar və ehtimallar

Maliyyə hesabatlarının MHBS-na uyğun hazırlanması rəhbərlik tərəfindən hesabat olunan məbləğlərə təsir edən proqnozların və ehtimalların verilməsini tələb edir. Bu cür proqnozlar və ehtimallar maliyyə hesabatlarının hazırlanması tarixinə Bankın rəhbərliyində olan məlumata əsaslanır. Bu səbəbdən də, faktiki nəticələr həmin proqnozlardan və ehtimallardan fərqlənə bilər. Dəyişikliyə xüsusilə həssas olan təxmini hesablamalara dəyərsizləşmə zərərləri və maliyyə alətlərinin ədalətli dəyəri üçün ehtiyatlar aiddir.

Balans tarixindəki qeyri-müəyyənliyin qiymətləndirilməsi üçün növbəti maliyyə dövrü ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsi riskini yaradan gələcək və digər mühüm mənbələrlə bağlı əsas ehtimallara aşağıdakılar daxildir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Banklardan alınacaq vəsaitlər | 5,125 | 4,430 |
| Müştərilərə verilmiş kreditlər | 118,992 | 46,574 |
| Satıla bilən investisiyalar | 2,160 | 5,179 |
| Torpaq və binalar | 10,710 | 3,212 |

Banklardan alınacaq vəsaitlər və müştərilərə verilmiş kreditlər dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla amortizasiya dəyəri ilə ölçülür. Dəyərsizləşmə ehtiyatlarının qiymətləndirilməsi üçün mühüm mühakimələrin yerinə yetirilməsi lazım gələ bilər. Dəyərsizləşmə ehtiyatlarını qiymətləndirməkdə Bankın məqsədi balans hesabatındakı ehtiyatların Bankın kredit portfelindəki zərərləri örtmək üçün kifayət edib etməyəcəyini qiymətləndirməkdir. Dəyərsizləşən kreditlər üzrə ehtiyatların hesablanması aktivin silinməsi ehtimalına və belə silinmə üzrə hesablanmış zərərə əsaslanır. Bu qiymətləndirmələr əvvəlki təcrübəyə əsaslanaraq statistik vasitələri istifadə etməklə aparılır. Bu müəyyən olunanlar rəhbərliyin mühakimələrini tətbiq etməklə tam əhatəli olacaq.

Bank kredit ehtiyatları ilə bağlı mühasibat proqnozlarını aşağıdakı səbəblərdən qeyri-müəyyənliyin əsas mənbəyi hesab edir: (i) onlar dövrdən-dövrə dəyişməyə çox həssasdırlar. Belə ki, dəyərsizləşən kreditlər və avanslarla bağlı gələcək kredit riskinin dərəcələri və zərərlərin qiymətləndirilməsi haqqında fərziyyələr onun son dövr üzrə fəaliyyət təcrübəsinə əsaslanır. (ii) Bankın hesablanmış zərərləri ilə faktiki zərərləri arasında hər hansı mühüm fərq (ehtiyatlarda qeyd olunduğu kimi) əhəmiyyətli olarsa Bankdan gələcək mənfəət və zərər hesabatına və balans hesabatına təsir edə biləcək ehtiyatlar yaratmağı tələb edə bilər. Hesablanmış zərərlər haqqında Bankın ehtimalları keçmiş fəaliyyətə, keçmiş istehlakçı fəaliyyətinə, yuxarıda qeyd edilən kredit qabiliyyətinə və ümumi iqtisadi şəraitə əsaslanır ki, bu da heç də gələcək zərərlərin göstəricisi deyildir.

Satıla bilən investisiyalar dəyərsizləşmə zərərləri çıxılmaqla ədalətli dəyərlə ölçülür. Ehtimal olunan zərərlərin qiymətləndirilməsi üçün rəhbərliyin mühüm mühakimələrinin yerinə yetirilməsi tələb olunur. Maliyyə alətlərinin dəyərsizləşməsi ilə bağlı mühasibat uçotu siyasəti aşağıda 3 saylı qeyddə müzakirə olunur.

Bəzi əmlak (binalar və torpaq) yenidən qiymətləndirmə məbləğləri ilə ölçülür. Son qiymətləndirmə tarixi 31 dekabr 2007-ci ildir.

**Əməliyyat Valyutası**

Bu maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır (bundan sonra "manat")

## 3. ƏSAS MÜHASİBAT UÇOTU SİYASƏTLƏRİ

**Maliyyə alətlərinin tanınması və ölçülməsi**

Bank maliyyə aktivlərini və öhdəliklərini yalnız o vaxt balansda uçota alır ki, o, maliyyə aləti üzrə müqavilənin tərəfi olur. Maliyyə aktivlərinin və öhdəliklərinin adi qaydada alqı-satqısı Bankın alqı-satqı əməliyyatlarını apardığı tarixdə qeyd olunur. Daha sonra satış tarixi ilə hesablaşma tarixi arasındakı ədalətli dəyərlə ölçüləcək maliyyə alətlərinin adi qaydada alışı alınmış maliyyə alətləri üçün təyin olunan qaydada hesabat olunur.

Maliyyə aktivləri və ya öhdəlikləri ilk olaraq ədalətli dəyər ilə, mənfəət və zərər haqqında hesabatda ədalətli dəyər ilə göstərilmədikdə isə, alışa birbaşa tətbiq olunan və ya maliyyə aktivlərinin və ya öhdəliklərinin buraxılması üzrə əməliyyat xərcləri məbləğində tanınır. Bu maddələrin daha sonra yenidən qiymətləndirilməsinə dair mühasibat uçotu qaydaları aşağıda açıqlanır.

**Nağd pul və ona bərabər tutulan vəsaitlər**

Nağd pula və ona bərabər tutulan vəsaitlərə kredit kartları ilə əməliyyatlar üçün verilmiş depozitlər istisna olmaqla, nağd pul, 90 günlük ödəniş müddəti olan Azərbaycan Respublikası Milli Bankındakı müxbir hesablar və müddətli depozit hesablar üzrə məhdudiyyətsiz qalıqlar, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına ("İƏİT") daxil olan ölkələrdə yerləşən banklara verilmiş avanslar və mənfəət və ya zərər hesabında ədalətli dəyərlə göstərilən manatla ifadə olunmuş və qısa müddət ərzində nağd vəsaitə köçürülməsi mümkün olan dövlət qiymətli kağızları aiddirlər. Nağd pul axınının müəyyənləşdirilməsi məqsədilə, Azərbaycan Respublikası Milli Bankı tərəfindən tələb olunan minimum ehtiyat depoziti onların istifadəsi üzrə mövcud olan məhdudiyyətlər səbəbindən nağd pul vəsaitləri ekvivalentinə daxil edilmir (Qeyd 12).

**Banklardan alınacaq vəsaitlər**

Adi işində Bank digər banklarda müxtəlif müddətə avanslar və ya depozitlər saxlayır. Banklardan alınacaq vəsaitlər effektiv faiz metodunu istifadə etməklə amortizasiya dəyəri ilə qiymətləndirilir.

**Müştərilərə verilmiş kreditlər**

Müştərilərə verilmiş kreditlər maliyyə hesabatlarının digər kateqoriyaları üzrə təsnifləşdirilən aktivlərdən fərqli olaraq sabit və ya müəyyən edilən ödənişli və fəal bazara çıxarılmayan qeyri-törəmə aktivləridir.

Bank tərəfindən verilən kreditlər ilk olaraq ədalətli dəyər üstəgəl əməliyyat üzrə aidiyyatı xərclər həcmində tanınır. Hesablanmış ədalətli dəyər kreditin ədalətli dəyərinə bərabər olmadıqda, misal üçün kredit bazar qiymətindən aşağı dəyərlə verildikdə, hesablanmış ədalətli dəyərlə kreditin ədalətli dəyəri arasındakı fərq kreditin ilkin tanınması üzrə zərər kimi qeydə alınır və bu zərərlərin xüsusiyyətindən uyğun olaraq mənfəət və zərər haqqında hesabata daxil edilir. Daha sonra kreditlər effektiv faiz metodunu istifadə etməklə amortizasiya dəyəri ilə qeydə alınır. Müştərilərə verilmiş kreditlər dəyərsizləşmə zərərləri üçün hər hansı ehtiyat çıxılmaqla uçota alınır.

**Kreditlərin və avansların silinməsi**

Kreditlər və avanslar, girovun Bankın sahibliyinə keçməsi də daxil olmaqla kredit və avanslar ümidsiz borclara çevrildiyi halda, dəyərsizləşmə zərərləri üçün yaradılmış ehtiyatlardan silinirlər. Kreditlər və avanslar banka ödənilməli məbləğləri toplamaq üçün rəhbərlik tərəfindən bütün mümkün tədbirlər həyata keçirildikdən və Bank bütün mümkün girovları satdıqdan sonra silinir.

**Dəyərsizləşmə zərərləri üçün ehtiyat**

Bankın maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun qiymətdən düşməsinə dair obyektiv sübutu olduqda maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlar yaradır. Amortizasiya dəyəri ilə göstərilən maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlar maliyyə aktivlərinin ilkin effektiv faiz dərəcəsi əsasında diskontlaşdırılaraq zəmanət və girov hesabına bərpa oluna bilən məbləğlər daxil olmaqla, gələcəkdə daxil olması gözlənilən nağd pul vəsaitlərinin ilkin dəyəri ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir. Əgər növbəti dövr ərzində dəyərsizləşmə zərərinin məbləği azalırsa və həmin azalma dəyərsizləşmə tanındıqdan sonra baş verən hadisə ilə əlaqəli olarsa, əvvəlcə hesablanmış dəyərsizləşmə zərəri ehtiyatı hesabına düzəliş etməklə bərpa edilir. İlkin dəyər ilə uçota alınan aktivlər üçün dəyərsizləşmə zərəri ehtiyatı maliyyə aktivinin balans dəyəri ilə oxşar maliyyə aktivlərinin bazardakı cari rentabellik tarifləri əsasında diskontlaşdırılan gələcəkdə daxil olması gözlənilən nağd pul vəsaitlərinin ilkin dəyəri arasındakı fərq kimi hesablanır. Bu cür dəyərsizləşmə zərərləri bərpa edilmir.

Dəyərsizləşmə zərərləri üçün ehtiyatların müəyyən edilməsi riskə məruz qalan aktivlərin təhlilinə əsaslanır və rəhbərliyin fikrincə yaranmış itkiləri bərpa etmək üçün kifayət edəcək məbləği əks etdirir. Ehtiyatlar ayrı-ayrılıqda mühüm əhəmiyyət kəsb edən maliyyə aktivləri üçün risk aktivlərinin fərdi şəkildə qiymətləndirilməsi və ayrı-ayrılıqda mühüm əhəmiyyət kəsb etməyən maliyyə aktivləri üçün fərdi və ya birgə qiymətləndirmənin nəticəsində yaradılır.

Dəyərsizləşmə zərərləri üçün ehtiyatdakı dəyişiklik mənfəət və zərər haqqında hesabatda göstərilir, dəyərsizləşmə zərərləri üçün ehtiyatın cəmi isə balans hesabatında göstərilmiş aktivlərin sayını əldə etmək üçün çıxılır. Dəyərsizləşmə zərərinin baş verməsi haqda sübutun obyektivliyini müəyyənləşdirərkən Bankın nəzərdən keçirdiyi faktorlara debitorların və ya emitentlərin likvidliyi, ödəniş etmə qabiliyyəti, biznes və maliyyə riskləri, oxşar aktivlərlə bağlı ödənişlərin gecikdirilməsi dərəcəsi, milli və yerli iqtisadi yönümlər və şəraitlər, girovun və zəmanətlərin ədalətli dəyəri daxildir. Bu və digər faktlar ayrı-ayrılıqda və ya birlikdə maliyyə aktivlərində və ya maliyyə aktivləri qrupunda dəyərsizləşmə zərərinin baş verməsi haqqında obyektiv sübutu əks etdirə bilər.

Bank maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərlərini amortizasiya dəyəri ilə uçota almaq üçün ehtiyat hesabdan istifadə edir.

Nəzərə almaq lazımdır ki, zərərlərin qiymətləndirilməsi rəhbərliyin mühakimələrinə əsaslanır. Müəyyən dövrlərdə Bankın üzləşdiyi itkilər dəyərsizləşmə zərərlər üçün ehtiyatlara nisbətən daha çox ola bilər ki, bu zaman dəyərsizləşmə zərərləri üçün ehtiyatın riskə məruz qalan aktivlər üzrə yaranan itkiləri əhatə edə bilib bilməməsi rəhbərliyin mühakiməsindən asılıdır.

**Maliyyə lizinqləri**

Maliyyə lizinqləri aktivin mülkiyyət hüququna xas olan bütün mühüm risklərin və mükafatların köçürüldüyü lizinqlərdir. Mülkiyyət hüququ tədricən köçürülə və ya köçürülməyə bilər. Lizinqin əməliyyat və ya maliyyə lizinqi olması müqavilənin formasından daha çox əməliyyatın mahiyyətindən asılıdır. Lizinq aşağıdakı hallarda maliyyə lizinqi kimi təsnif edilir:

- İcarə müddətinin sonunda lizinq üzrə aktivin mülkiyyət hüququ icarədara verildikdə;
- İcarədar aktivi seçimin reallaşdırıldığı tarixdə ədalətli dəyərdən daha aşağı olması gözlənilən qiymətlə almaq seçiminə malik olduqda. Belə ki, icarənin ilkin mərhələsində seçimin reallaşdırılmasına dair kifayət qədər əminlik vardır;
- Aktivin mülkiyyət hüququnun köçürülməməsinə baxmayaraq icarə müddəti aktivin istismar müddətinin əksər hissəsini əhatə etdikdə;
- İcarənin ilkin mərhələsində minimum icarə ödənişlərinin cari dəyəri ən azı bütün icarəyə götürülən aktivlərin ədalətli dəyərinə bərabər olduqda;
- İcarəyə götürülən aktivlər xüsusi tipli aktivlər olduqda. Belə ki, yalnız icarədar mühüm təkmilləşdirmələr aparmadan onlardan istifadə edə bilər.

Bank icarəyə verən tərəf olaraq öz maliyyə lizinqlərini kreditlər kimi təqdim edir və ilk olaraq onları icarədə olan xalis investisiyaya bərabər məbləğdə qiymətləndirir. Nəticədə, maliyyə gəlirinin tanınması Bankın maliyyə lizinqinə xalis investisiyasında daimi dövrü gəlir dərəcəsini əks etdirən modelə əsaslanır.

İcarə başlanmazdan əvvəl gələcəkdə maliyyə lizinqinə köçürülmək məqsədilə alınmış əmlak və avadanlıq maliyyə hesabatlarında maya dəyəri ilə maliyyə lizinqinə köçürülmək üçün alınmış əmlak və avadanlıq kimi tanınır.

**Satıla bilən investisiyalar**

Satıla bilən investisiyalar qeyri-müəyyən müddətə saxlanılması nəzərdə tutulan borc və kapital investisiyalarından ibarətdir. Bu qiymətli kağızlar ilk olaraq ədalətli dəyərlə qeyd olunur. Daha sonra bu qiymətli kağızlar satılana qədər yenidən qiymətləndirilməklə ədalətli dəyərlə birbaşa kapitalda göstərilir. Satıldıqdan sonra isə əvvəlcə kapitalda tanınmış gəlir/xərc birbaşa mənfəət və zərər haqqında hesabatda tanınan dəyərsizləşmə zərərləri üçün ehtiyatlar, xarici valyuta mübadiləsi üzrə gəlirlər və ya zərərlər və effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəliri istisna olmaqla, mənfəət və zərər haqqında hesabatda yenidən qeydə alınır. Bank satıla bilən investisiyaların ədalətli dəyərini müəyyən etmək üçün rəsmi bazar məzənnələrindən istifadə edir. Əgər belə məzənnələr yoxdursa, rəhbərlik müvafiq qiymətləndirmə metodlarından istifadə edir. Qiymətləndirmə metodlarına müstəqil və məlumatlı tərəflər arasında ən son qısamüddətli kommersiya əməliyyatları, qiymətləndirilən alətlə əhəmiyyətli dərəcədə eyni olan digər alətin hazırkı ədalətli dəyərinə istinad, diskontlaşdırılmış nağd pul vəsaitlərinin təhlili üsulları daxildir. Əgər aləti qiymətləndirmək üçün bazar iştirakçıları tərəfindən istifadə olunan ümumi qiymətləndirmə metodu mövcuddursa və həmin metod faktiki bazar əməliyyatlarından əldə olunan qiymətlə bağlı etibarlı heşablamaları nümayiş etdirə bilərsə, Bank həmin metoddan istifadə edir. Alınmış dividentlər mənfəət və zərər haqqında hesabata divident üzrə gəlir kimi daxil edilir.

Bazarlarda satışı təşkil olunmayan borc və səhm qiymətli kağızları dəyərsizləşmə zərərləri çıxılmaqla, əgər varsa, ədalətli dəyəri düzgün qiymətləndirmək mümkün olmadıqda, müvafiq olaraq ilkin dəyərlə göstərilir.

Bu cür qiymətli kağızların dəyərsizləşməsinə dair obyektiv sübut olduqda, əvvəllər kapitalda tanınmış yığılan zərər kapitaldan çıxarılır və dövr üzrə mənfəət və zərər haqqında hesabatda tanınır. Dəyərsizləşmədən sonra baş verən hadisələrlə obyektiv əlaqəsi olan borc alətləri üzrə bu cür dəyərsizləşmə zərərlərinin bərpası dövr üzrə mənfəət və zərər haqqında hesabatda tanınır. Kapital alətləri üzrə bu cür dəyərsizləşmə zərərinin bərpası mənfəət və zərər haqqında hesabatda tanınmır.

**Satış üçün saxlanılan qeyri-dövriyyə aktivləri**

Aktivin balans dəyərinin davamlı istifadədən daha çox satış əməliyyatı nəticəsində bərpa edilməsi ehtimalı yüksək olduqda qeyri-dövriyyə aktivləri satış üçün saxlanılan aktivlər kimi təsnifləşdirilir. Bu cür satış əməliyyatı əsasən aktivin satış üçün saxlanılan formada təsnifləşdirildiyi tarixdən bir il ərzində tamamlanır.

Satış üçün saxlanılan qeyri-dövriyyə aktivləri satış xərcləri çıxılmaqla daha aşağı balans dəyəri və ədalətli dəyər ilə ölçülür. Əgər satış üçün saxlanılan aktivin satış xərcləri çıxılmaqla ədalətli dəyəri onun balans dəyərindən aşağıdırsa dəyərsizləşmə zərəri mənfəət və zərər haqqında hesabatda satış üçün saxlanılan qeyri-dövriyyə aktivləri üzrə zərər kimi tanınır. Satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyərində hər hansı sonrakı artım həmin aktivlə bağlı əvvəllər tanınmış kumulyativ dəyərsizləşmə zərəri həcmində tanınır.

**Əmlak və avadanlıq**

Əmlak və avadanlıq yığılmış köhnəlmə və amortizasiya çıxılmaqla ilkin dəyərlə (yenidənqiymətləndirmə məbləğləri ilə göstərilən binalar istisna olmaqla) tanınır. Başa çatdırılmamış və istismara buraxılmamış aktivlər üzrə köhnəlmə aktivlərin istifadəyə hazır olduğu tarixdən hesablanır.

Köhnəlmə əmlakın və avadanlığın balans dəyərindən çıxılır və onların faydalı istismar müddətləri üzrə silinir. Amortizasiya aşağıdakı illik faiz dərəcələrini istifadə etməklə bərabər hissələrlə köhnəlmə metodu əsasında hesablanır:

| | |
|---|---|
| Binalar | 5% |
| Mebel və avadanlıq | 20% |
| Kompüterlər və rabitə avadanlığı | 25% |
| Nəqliyyat vasitələri | 20% |
| Digər əsas vəsaitlər | 20% |

Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin balans dəyərlərinin onların bərpa dəyərlərindən artıq dəyərlə uçota alınıb-alınmadığını qiymətləndirmək üçün onlar hər balans hesabatı tarixində nəzərdən keçirilirlər. Balans dəyəri bərpa dəyərindən artıq olduğu halda, aktivlərin dəyəri bərpa dəyəri səviyyəsinədək aşağı salınır.

Xidmətlərin göstərilməsi ilə bağlı və ya inzibati məqsədlər üçün saxlanılan torpaqlar və binalar balans hesabatında yenidən qiymətləndirmə tarixinə onların ədalətli dəyərini əks etdirən yenidən qiymətləndirmə dəyərindən yığılmış hər hansı köhnəlmə və dəyərsizləşmə zərərləri çıxmaqla göstərilir və peşəkar qiymətləndiricilər tərəfindən bazar göstəriciləri əsasında aparılan qiymətləndirmə ilə müəyyənləşdirilir. Yenidən qiymətləndirmələr dövrü olaraq aparılır ki, bu zaman balans dəyəri balans hesabatı tarixində ədalətli dəyəri istifadə etməklə müəyyənləşdirilən balans dəyərindən əsaslı surətdə fərqlənmir.

Bu cür binaların yenidən qiymətləndirilməsindən yaranan hər hansı yenidən qiymətləndirmə artımı əsas vəsaitlərin yenidən qiymətləndirmə ehtiyatının kreditinə yazılır lakin, əvvəllər xərc kimi tanınmış eyni aktiv üzrə yenidən qiymətləndirmə azalmasının bərpa edildiyi hal istisna təşkil edir, bu halda artım əvvəllər hesablanmış azalma həcmində mənfəət və zərər haqqında hesabatın kreditinə yazılır. Belə binaların yenidən qiymətləndirilməsi nəticəsində balans hesabatında yaranan azalma qalıqdan, əgər varsa, artıq olduğu həcmdə xərc kimi tutulur və həmin aktivin əvvəlki yenidən qiymətləndirməsi ilə bağlı əmlakların yenidən qiymətləndirmə ehtiyatında saxlanılır.

Yenidən qiymətləndirilən binalar üzrə köhnəlmə mənfəət və ya zərər haqqında hesabata daxil edilir. Yenidən qiymətləndirilən əmlakın daha sonra satışı və ya istismardan çıxması zamanı əmlakın yenidən qiymətləndirmə ehtiyatında qalan müvafiq yenidən qiymətləndirmə qalığı birbaşa bölüşdürülməmiş mənfəət hesabına köçürülür.

**Vergi**

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmini əks etdirir.

Cari vergi xərcləri il üzrə vergiyə cəlb olunan mənfəətə əsaslanır. Vergiyə cəlb olunan mənfəət mənfəət və zərər haqqında hesabatda göstərilən xalis mənfəətdən fərqlənir, çünki vergiyə cəlb olunan mənfəətə digər illərdə vergiyə cəlb olunan və ya tutulan gəlir və xərc maddələri daxil deyil, bundan əlavə o, heç vaxt vergiyə cəlb olunmayan və vergi tutulmayan maddələri özündə birləşdirmir. Bankın cari vergi xərcləri hesabat dövründə qüvvəyə minən və ya balans hesabatı tarixinə qüvvəyə minən vergi dərəcələrini istifadə etməklə hesablanır.

Təxirə salınmış vergilər - maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə olunan müvafiq vergi bazaları arasında yaranan fərqlərdən bərpa edilməsi və ya ödənilməsi gözlənilən vergilərdir və bu növ vergilər balans hesabatının öhdəlik metodu əsasında uçota alınır. Təxirə salınmış vergi öhdəlikləri adətən bütün vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün tanınır, təxirə salınmış vergi aktivləri isə istifadə edilən tutulmalı müvəqqəti fərqlərə qarşı yaranması ehtimal edilən vergiyə cəlb olunan mənfəətin həcmində tanınır. Əgər müvəqqəti fərq nə vergiyə cəlb olunan mənfəətə, nə də maliyyə mənfəətinə təsir etməyən əməliyyat üzrə digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranırsa, bu cür aktivlər və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər balans hesabatı tarixində nəzərdən keçirilir və aktivlərin bütün hissəsini və ya müəyyən hissəsini bərpa etməsi üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimal edilməyən həcmdə azaldılır.

Təxirə salınmış vergi - öhdəliklər üzrə hesablaşmanın aparıldığı və ya aktivlərin realizə olunduğu dövrdə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi mənfəət və zərər haqqında hesabatda xərc maddəsi kimi göstərilir və ya hesabatın kredit balansına yazılır, lakin təxirə salınmış verginin birbaşa kapitala və hesabatın kredit balansına yazıldığı hallar istisna təşkil edir, belə ki, bu halda təxirə salınmış vergi səhmdar kapitalı ilə bağlı olur.

Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış mənfəət vergisi öhdəlikləri aşağıdakı hallarda əvəzləşdirilir və balans hesabatında əks olunur:

- Bank cari mənfəət vergisi aktivlərini cari mənfəət vergisi öhdəliklərinə qarşı əvəzləşdirmək hüququna malik olduqda;
- Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış mənfəət vergisi öhdəlikləri eyni vergi orqanı tərəfindən eyni təşkilatdan tutulan mənfəət vergisinə aid olduqda.

Azərbaycanda Bankın fəaliyyətinə şamil ediləcək müxtəlif başqa vergi növləri də mövcuddur. Bu vergilər mənfəət və zərər haqqında hesabata əməliyyat xərclərinin komponentləri kimi daxil edilir.

**Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər və müştəri hesabları**

Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər və müştəri hesabları ilk olaraq ədalətli dəyərlə tanınır. Daha sonra ödənilməli məbləğlər amortizasiya dəyəri ilə göstərilir və balans dəyəri ilə geri alınma dəyəri arasındakı hər hansı fərq mənfəət və zərər haqqında hesabatda effektiv faiz metodunu istifadə etməklə borcların yarandığı dövr üzrə tanınır.

**Buraxılmış borc qiymətli kağızları**

Buraxılmış borc qiymətli kağızları Bank tərəfindən buraxılan istiqrazları əks etdirir. Bu istiqrazlar müştəri hesabları üçün istifadə edilən eyni mühasibatlıq prinsipləri əsasında uçota alınır.

**Ehtiyatlar**

Ehtiyatlar Bank keçmiş hadisələr nəticəsində cari hüquqi və ya konstruktiv öhdəliyə malik olduqda, və öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi cəhətdən faydalı ehtiyatların azalması ehtimalı yarandıqda və öhdəlik düzgün qiymətləndirildikdə uçota alınır.

**Verilmiş maliyyə zəmanəti müqavilələri və akkreditivlər**

Bank tərəfindən verilən maliyyə zəmanəti müqavilələri və akkreditivlər zərər çəkənin zərərlərini bərpa etmək üçün edilən xüsusi ödənişlərdən ibarət kredit sığortasıdır. Bu ödənişlər müəyyən edilmiş borcalanın borc aləti üzrə ilkin və ya düzəliş edilmiş şərtləri üzrə ödəniş etmək imkanına malik olmadığından aparılır. Verilmiş bu cür maliyyə zəmanəti və akkreditivlər ilk olaraq ədalətli dəyərlə tanınır. Daha sonra isə onlar iki məbləğ (a) ehtiyat kimi tanınmış məbləğ və (b) ilk olaraq tanınmış məbləğ arasında ən yüksək həddən, müvafiq olduqda, verilmiş maliyyə zəmanəti müqavilələri və ya akkreditivlər üzrə əldə olunan ilk sığorta gəlirinin ümumi amortizasiyasını çıxmaqla qiymətləndirilir.

**Səhmdar kapitalı**

Səhmdar kapitalı maya dəyəri ilə tanınır. Biznesin birləşməsindən başqa yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olan kənar xərclər hər hansı aidiyyatı mənfəət vergiləri çıxılmaqla kapitaldan tutulur.

Adi səhmlər üzrə dividentlər kapitalda elan olunduqları dövrdə azalma kimi tanınır. Balans hesabatı tarixindən sonra elan olunan dividentlər "Balans Hesabatı tarixindən sonrakı hadisələr" haqqında 10 saylı MUBS-a uyğun olaraq balans hesabatından sonrakı hadisə kimi tanınır və müvafiq qaydada açıqlanır.

**Məcburi dövlət sosial sığorta haqları və digər müavinətlər**

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Bank işçilərin əmək haqlarından məcburi dövlət sosial sığorta haqları tutur və onları dövlət pensiya fonduna köçürür. Belə xərclər müvafiq əmək haqlarının qazanıldığı dövrdə çıxılır. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət pensiya fondu tərəfindən yerinə yetirilir. Bank, işə götürən tərəfindən cari məcmu əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış cari ödənişlərin həyata keçirilməsini tələb edən Azərbaycan Respublikasının dövlət pensiya sistemindən başqa hər hansı pensiya sisteminə malik deyildir. Bundan başqa, Bankda hesablanması tələb olunan təqaüd sonrası müavinətlər və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Gəlir və xərclərin tanınması**

Faiz gəliri və xərci hesablama metodu ilə effektiv faiz metodundan istifadə etməklə tanınır. Effektiv faiz metodu maliyyə aktivinin və ya maliyyə öhdəliyinin (və ya maliyyə aktivləri və ya maliyyə öhdəlikləri qrupunun) amortizasiya dəyərinin hesablanması və müvafiq dövr üzrə faiz gəlirinin və faiz xərclərinin bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi hesablanmış gələcək nağd pul ödənişlərini və ya daxil olan vəsaitləri maliyyə alətinin gözlənilən faydalı istismar müddəti üzrə və ya müvafiq olduqda, daha qısa müddətdə maliyyə aktivinin və ya maliyyə öhdəliyinin xalis balans dəyərinə dəqiq diskontlaşdıran dərəcədir.

Dəyərsizləşmə zərəri nəticəsində maliyyə aktivi və ya oxşar maliyyə alətləri qrupu (qismən silindikdə) silindikdə, faiz gəliri dəyərsizləşmə zərərini müəyyən etmək məqsədilə gələcək nağd pul vəsaitlərini diskontlaşdırmaq üçün istifadə olunan faiz dərəcəsi əsasında tanınır.

Ədalətli dəyərlə göstərilən aktivlər üzrə qazanılan faizlər faiz gəliri hissəsində təsnifləşdirilir.

Kreditin ayrılması haqları aidiyyatı birbaşa xərclərlə birlikdə təxirə salınır və kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi qeydə alınır. Kredit öhdəliyinin xüsusi borc müqaviləsi ilə nəticələnməsi mümkün olduğu hallarda, kredit öhdəliyi üzrə haqlar aidiyyatı birbaşa xərclərlə birlikdə təxirə salınır və yekun kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi tanınır. Kredit öhdəliyinin xüsusi borc müqaviləsi ilə nəticələnməsi mümkün olmadığı hallarda, kredit öhdəliyi üzrə haqlar kredit öhdəliyinin qalan müddəti üzrə mənfəət və zərər haqqında hesabatda tanınır. Kredit müqaviləsinin müddəti kredit alınmamış qurtardıqda, kredit öhdəliyi üzrə haqlar mənfəət və zərər hesabatında müddətin bitməsi üzrə tanınır. Kredit xidməti haqları xidmətlər yerinə yetirildikdə gəlir kimi tanınır. Bütün digər komissiyalar xidmətlər göstərilən zaman tanınır.

**Xarici valyuta əməliyyatları**

Xarici valyuta ilə ifadə olunan müəyyən edilmiş pul aktiv və öhdəlikləri balans tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Azərbaycan Manatına konvertasiya edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatın yerinə yetirildiyi günə qüvvədə olan valyuta məzənnəsi ilə hesablanır. Bu əməliyyatlardan yaranan gəlir və zərər xarici valyuta mübadiləsi üzrə xalis gəlir kimi qeyd edilir.

**Xarici valyuta məzənnələri**

Bank ilin sonuna maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2007-ci il** | **31 dekabr 2006-cı il** |
|---|---|---|
| Manat/1 ABŞ dolları | 0.8453 | 0.8714 |
| Manat /1 Avro | 1.2450 | 1.1471 |
| Manat /1 BBF | 1.6876 | 1.7113 |
| Manat /1 Rus rublu | 0.0346 | 0.0331 |

**Maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi**

Bank qeydə alınmış məbləğləri təmin etmək üçün hüquqi cəhətdən təsiredici qüvvəyə malik olduqda və ya Bank eyni zamanda aktivlərini maddi vəsaitə çevirmək və ya öhdəliklərini yerinə yetirmək, yaxud da hər ikisi üzrə xalis əsasda hesablaşma aparmaq niyyətində olduqda maliyyə aktivləri və öhdəlikləri tutuşdurulur və balans da xalis məbləğlə qeyd olunur. Silinməsinə icazə verilməyən maliyyə aktivinin köçürülməsini uçota alarkən Bank köçürülmüş aktivi və ya əlaqəli öhdəliyi əvəzləşdirmir.

**Yeni standartların qəbul edilməsi**

Cari ildə, Bank Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən buraxılmış, Bankın əməliyyatlarına uyğun olan və 1 yanvar 2007-ci il tarixdən başlayan illik hesabat dövrlərinə aid olan bütün yeni və düzəliş edilmiş standartları və şərhləri qəbul etmişdir. Yeni və düzəliş edilmiş Standartların və Şərhlərin qəbul edilməsi Maliyyə Alətləri: Açıqlamalar haqqında MHBS 7-nin tətbiq edilməsinin təsiri istisna olmaqla, Bankın mühasibat uçotu siyasətlərində mühüm dəyişikliklərə səbəb olmadığından bu il və keçən il hesabat olunan məbləğlərə təsir etməmişdir.

MHBS 7 1 yanvar 2007-ci il tarixdən başlayaraq qüvvədədir. MHBS 7 maliyyə alətlərinin açıqlanması üçün yeni tələblər və tövsiyələr qoyur. MHBS 7-nin qəbul edilməsi bu maliyyə hesabatlarında Bankın maliyyə alətlərinin maliyyə hesabatlarında təsnifləşdirilməsinə və qiymətləndirilməsinə təsir etmir. Əlavə məlumat MHBS 7-də tələb olunduğu kimi maliyyə hesabatlarında cari və müqayisəli hesabat dövrləri üçün açıqlanmışdır.

Bu maliyyə hesabatları tarixinə Banka aid olan aşağıdakı Standartlar və Şərhlər buraxılmış lakin qüvvəyə minməmişdir: 1 yanvar 2009-cu il tarixinə, Əməliyyat seqmentləri haqqında yeni MHBS 8 "Əməliyyat Seqmentləri" haqqında MUBS 14-cü əvəz edəcək. Hazırda rəhbərlik yeni və düzəliş edilmiş standartların gələcək dövrlərə təsirini qiymətləndirir. Bank hesab edir ki, digər yeni Standartlar və Şərhlər Bankın maliyyə hesabatlarına maliyyə cəhətdən heç bir mühüm təsir etməyəcəkdir.

## 4. XALİS FAİZ GƏLİRİ

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| **Faiz gəliri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya dəyəri ilə qeydə alınmış aktivlər üzrə faiz gəliri: | | |
| - dəyərsizləşmiş aktivlər üzrə faiz gəliri | 10,729 | 5,132 |
| - dəyərsizləşməyən aktivlər üzrə faiz gəliri | 6,477 | 3,098 |
| Amortizasiya dəyəri ilə qeydə alınmış maliyyə aktivləri üzrə cəmi faiz gəliri | 17,206 | 8,230 |
| Satıla bilən investisiyalar üzrə faiz gəliri | 623 | 396 |
| Zəmanətlər üzrə faiz gəliri | 13 | 4 |
| **Cəmi faiz gəliri** | 17,842 | 8,630 |
| Amortizasiya dəyəri ilə qeyd olunmuş aktivlər üzrə faiz gəlirləri aşağıdakılardan ibarətdir: | | |
| Müştərilərə verilmiş kreditlər üzrə faiz | 16,831 | 7,819 |
| Maliyyə lizinqi üzrə faiz | 146 | - |
| Banklara verilmiş kreditlər və avanslar üzrə faiz | 229 | 411 |
| Cəmi amortizasiya dəyəri ilə qeydə alınmış maliyyə aktivləri üzrə faiz gəliri | 17,206 | 8,230 |
| Satıla bilən investisiyalar üzrə faiz gəliri | 623 | 396 |
| Zəmanətlər üzrə faiz gəliri | 13 | 4 |
| **Cəmi faiz gəliri** | 17,842 | 8,630 |
| Amortizasiya dəyəri ilə qeydə alınmış maliyyə aktivləri üzrə faiz xərci aşağıdakılardan ibarətdir: | | |
| Müştəri hesabları üzrə faiz | (5,782) | (2,099) |
| Banklardan alınmış depozitlər üzrə faiz | (1,518) | (550) |
| Buraxılmış borc qiymətli kağızları üzrə faiz | (625) | (107) |
| Cəmi amortizasiya dəyəri ilə qeydə alınmış maliyyə aktivləri üzrə faiz xərci | (7,925) | (2,756) |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatın yaradılmasından əvvəl xalis faiz gəliri** | 9,917 | 5,874 |

## 5. DƏYƏRSİZLƏŞMƏ ZƏRƏRLƏRİ ÜÇÜN EHTİYAT, DİGƏR EHTİYATLAR

Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | Müştərilərə verilmiş kreditlər | Banklardan alınacaq vəsaitlər | Satıla bilən investisiyalar | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2005-ci il** | 525 | - | - | 525 |
| Ehtiyat | 848 | 9 | 5 | 862 |
| Aktivlərin silinməsi | (46) | - | - | (46) |
| **31 dekabr 2006-cı il** | **1,327** | **9** | **5** | **1,341** |
| Ehtiyat/(ehtiyatın bərpası) | 2,547 | (8) | (2) | 2,537 |
| Aktivlərin silinməsi | (27) | - | - | (27) |
| **31 dekabr 2007-ci il** | **3,847** | **1** | **3** | **3,851** |

Digər əməliyyatlar üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlarda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | Zəmanətlər və digər öhdəliklər | Digər aktivlər | Cəmi |
|---|---|---|---|
| **31 dekabr 2005-ci il** | - | - | - |
| Ehtiyat | - | 17 | 17 |
| **31 dekabr 2006-cı il** | - | **17** | **17** |
| Ehtiyat/ (ehtiyatın bərpası) | 32 | (17) | 15 |
| **31 dekabr 2007-ci il** | **32** | **-** | **32** |

## 6. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS GƏLİR

Xarici valyuta əməliyyatları üzrə xalis gəlir aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| Dilinq əməliyyatları, xalis | 504 | 612 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirmə fərqləri, xalis | (42) | (91) |
| **Cəmi xarici valyuta əməliyyatları üzrə xalis gəlir** | **462** | **521** |

## 7. HAQQ VƏ KOMİSSİYA GƏLİRİ VƏ XƏRCİ

Haqq və komissiya gəliri və xərci aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| **Haqq və komissiya gəliri:** | | |
| Hesablaşmalar | 1,258 | 759 |
| Nağd vəsaitlə əməliyyatlar | 955 | 607 |
| Plastik kartlarla əməliyyatlar | 941 | 420 |
| Xarici valyuta əməliyyatları | 391 | 715 |
| Sənədləşdirmə əməliyyatları | 55 | 33 |
| Sair | 16 | 1 |
| **Cəmi haqq və komissiya gəliri** | **3,616** | **2,535** |
| **Haqq və komissiya xərci:** | | |
| Plastik kartlarla əməliyyatlar | (480) | (188) |
| Nağd vəsaitlə əməliyyatlar | (386) | (137) |
| Hesablaşmalar | (308) | (239) |
| Qiymətli kağızlarla əməliyyatlar | (48) | (29) |
| Sənədləşdirmə əməliyyatları | (19) | (29) |
| Xarici valyuta əməliyyatları | (3) | (15) |
| Sair | (109) | (62) |
| **Cəmi haqq və komissiya xərci** | **(1,353)** | **(699)** |

## 8. DİGƏR GƏLİRLƏR

Digər gəlirlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| Qəbul edilmiş penyalar və cərimələr | 225 | 128 |
| Əmlakın satışından gəlir | 2 | - |
| **Cəmi digər gəlirlər** | **227** | **128** |

## 9. ƏMƏLİYYAT XƏRCLƏRİ

Əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| Heyətlə bağlı xərclər (mükafatlar daxil olmaqla) | 3,948 | 2,108 |
| Köhnəlmə və amortizasiya | 663 | 486 |
| Əməliyyat lizinqi | 526 | 264 |
| Reklam | 325 | 472 |
| Əmlak və avadanlığın saxlanması | 302 | 53 |
| Ofis ləvazimatları | 204 | 125 |
| Depozit Sığorta Fonduna ödənişlər | 126 | - |
| Təhlükəsizlik xərcləri | 95 | 46 |
| Peşəkar xidmət haqları | 91 | 48 |
| Rabitə | 86 | 59 |
| Hüquq xidmətləri üçün haqlar | 69 | 21 |
| Mənfəət vergisindən başqa vergilər | 48 | 55 |
| İcarə xərcləri | 48 | 36 |
| Ezamiyyət xərcləri | 30 | 19 |
| Nəqliyyat vasitələrinin istismar xərcləri | 24 | 13 |
| Üzvlük haqları | 22 | 7 |
| Sığorta məsrəfləri | 6 | 9 |
| Əsas vəsaitlərin silinməsindən zərər | 5 | 30 |
| Nümayəndəlik xərcləri | 3 | 26 |
| Digər xərclər | 65 | 67 |
| **Cəmi əməliyyat xərcləri** | **6,686** | **3,944** |

## 10. MƏNFƏƏT VERGİSİ

Bank vergi hesabatlarını Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyi əsasında hazırlayır və saxlayır ki, bu da Maliyyə Hesabatının Beynəlxalq Standartlarından fərqlənir.

Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Banka müəyyən daimi vergi fərqləri təsir edir.

Təxirə salınmış vergilər maliyyə hesabatı məqsədi üçün aktiv və öhdəliklərin balans dəyərləri ilə vergi məqsədləri üçün istifadə olunan məbləğlər olan müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2007 və 2006-cı il tarixlərinə müvəqqəti fərqlər əsasən, gəlirlərin və xərclərin müxtəlif tanınma üsullarına və bəzi aktivlərin qeyd edilmiş dəyərlərinə əsaslanır.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| **Çıxılan müvəqqəti fərqlər:** | | |
| Müştərilərə verilmiş kreditlər | 435 | 258 |
| Əmlak və avadanlıq | 368 | 199 |
| Digər aktivlər | - | 17 |
| Digər öhdəliklər | - | 33 |
| **Cəmi çıxılan müvəqqəti fərqlər** | **803** | **507** |
| **Vergiyə cəlb olunan müvəqqəti fərqlər:** | | |
| Əmlak və avadanlıq | (9,095) | (1,597) |
| Kredit xətləri və zəmanətlər üçün ehtiyatlar | (505) | (132) |
| Alınmalı maliyyə lizinqi | (51) | - |
| Satıla bilən qeyri-dövriyyə aktivləri | - | (517) |
| Satıla bilən investisiyalar | - | (98) |
| **Cəmi vergiyə cəlb olunan müvəqqəti fərqlər** | **(9,651)** | **(2,344)** |
| Xalis vergiyə cəlb olunan müvəqqəti fərqlər | **(8,848)** | **(1,837)** |
| **Yerli mənfəət vergi dərəcəsi (22%) ilə xalis təxirə salınmış vergi öhdəliyi** | **(1,945)** | **(404)** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə bitən illər üzrə vergi xərcləri və maliyyə mənfəəti arasındakı əlaqələr aşağıda izah olunur:

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **3,660** | **3,550** |
| 22% yerli vergi dərəcəsi ilə vergi | 805 | 781 |
| Daimi fərqlərin vergi təsiri | 47 | (23) |
| **Mənfəət vergisi xərcləri** | **852** | **758** |
| Cari mənfəət vergisi xərci | 878 | 885 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliklərində dəyişiklik | (26) | (127) |
| **Mənfəət vergisi xərci** | **852** | **758** |

| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Dövrün əvvəlinə | 404 | 554 |
| Mənfəətə daxil edilən dövr üzrə mənfəət vergisi öhdəliyində dəyişiklik | (26) | (127) |
| Əmlak və avadanlığın yenidən qiymətləndirmə ehtiyatında dəyişikliklərin vergi təsiri | 1,567 | (23) |
| **Dövrün sonuna** | **1,945** | **404** |

## 11. HƏR SƏHM ÜZRƏ GƏLİR

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | 31 dekabr 2006-cı il tarixinə bitən il |
|---|---|---|
| **Mənfəət:** | | |
| İl üzrə xalis mənfəət | 2,808 | 2,792 |
| Hər səhm üzrə əsas və azaldılmış adi səhmlərin hesablanmış orta sayı | 3,400,000 | 3,400,000 |
| **Hər səhm üzrə gəlir – əsas və azaldılmış (manatla)** | **0.83** | **0.82** |

## 12. NAĞD PUL VƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKINDA QALIQ VƏSAİTLƏR

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Nağd pul | 3,845 | 4,832 |
| ARMB-dakı qalıq vəsaitlər | 8,876 | 4,995 |
| **Cəmi nağd pul və Azərbaycan Respublikası Milli Bankındakı qalıq vəsaitlər** | **12,721** | **9,827** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə Azərbaycan Respublikasının Milli Bankındakı ("ARMB") qalıqlar müvafiq olaraq 6,488 min manat və 4,561 min manat məbləğindən ibarət olmuşdur ki, bu da ARMB tərəfindən tələb olunan məcburi ehtiyat depozitini əks etdirir. Bank müxbir hesabındakı bütün vəsaitlərdən istifadə etmək hüququna malikdir, lakin bu zaman 15 günlük dövr üçün orta aylıq qalıq tələb olunan məcburi ehtiyatdan yüksək olmalıdır.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üçün nağd vəsaitlər və onların ekvivalentləri aşağıdakı kimidir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Nağd pul və Azərbaycan Respublikasının Milli Bankındakı qalıqlar | 12,721 | 9,827 |
| Məhdud depozitlər istisna olmaqla İƏİT ölkələrindəki banklardan alınacaq vəsaitlər | 312 | 1,341 |
| | **13,033** | **11,168** |
| Azərbaycan Respublikasının Milli Bankındakı məcburi ehtiyat depoziti çıxılmaqla | (6,488) | (4,561) |
| **Cəmi nağd pul vəsaitləri və onların ekvivalentləri** | **6,545** | **6,607** |

## 13. BANKLARDAN ALINACAQ VƏSAİTLƏR

Banklardan alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Digər banklarla müxbir hesablar | 2,910 | 1,491 |
| Digər banklarla kreditlər və depozitlər | 2,216 | 2,948 |
| | 5,126 | 4,439 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | (1) | (9) |
| **Cəmi banklardan alınacaq vəsaitlər** | **5,125** | **4,430** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə dəyərsizləşmə zərərləri üçün ehtiyatlardakı hərəkətlər 5 saylı qeyddə açıqlanmışdır.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə banklardan alınacaq vəsaitlərə daxil edilən hesablanmış faiz gəliri müvafiq olaraq 3 min manat və 38 min manat olmuşdur.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə yuxarıda qeyd olunan məbləğlər Dresdner Bank AG, Almaniya Bankında saxlanılan müvafiq olaraq 2,121 min manat və 2,442 min manat məbləğində nağd vəsait şəklində zəmanətlərdir və Bank verilən kreditə qarşı bu təminatı bütün kredit dövrü üzrə saxlamaq öhdəliyinə malikdir.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə Bankın 2 bankda kreditləri və avansları olmuşdur ki, bunlar da ayrı-ayrılıqda Bankın kapitalının 10%-dən artıq olmuşdur.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə banklardan alınacaq vəsaitlər üzrə maksimum kredit riski müvafiq olaraq 5,125 min manat və 4,430 min manat təşkil etmişdir.

## 14. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 120,285 | 47,901 |
| Maliyyə lizinqinə xalis investisiya | 2,554 | - |
| | 122,839 | 47,901 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | (3,847) | (1,327) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **118,992** | **46,574** |

31 dekabr 2007 və 2006-cı il tarixlərdə bitən illər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlarda hərəkətlər 5 saylı qeyddə açıqlanır.

Aşağıdakı cədvəldə girovun ədalətli dəyəri ilə deyil, girovla təmin edilən kreditlərin məbləğləri icmallaşdırılmışdır:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Daşınmaz əmlakla təmin olunmuş kreditlər | 34,918 | 15,464 |
| Nəqliyyat vasitələri ilə təmin olunmuş kreditlər | 34,634 | 12,852 |
| Avadanlıqla təmin olunmuş kreditlər | 26,617 | 8,040 |
| Kənar tərəflərin zəmanətləri ilə təmin olunmuş kreditlər | 14,074 | 5,659 |
| Korporativ zəmanətlərlə təmin olunmuş kreditlər | 4,207 | 143 |
| Depozitlər və qiymətli metallarla təmin olunmuş kreditlər | 2,999 | 1,968 |
| Digər girovlarla təmin olunmuş kreditlər | 2,694 | 253 |
| İnventarlarla təmin olunmuş kreditlər | 1,492 | 612 |
| Sığorta polisləri ilə təmin olunmuş kreditlər | 1,168 | 2,893 |
| Təminatsız kreditlər | 36 | 17 |
| | 122,839 | 47,901 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | (3,847) | (1,327) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **118,992** | **46,574** |

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| **İqtisadi sahələr üzrə təhlil:** | | |
| Fiziki şəxslər | 84,105 | 31,829 |
| Ticarət və xidmətlər | 21,382 | 11,296 |
| İstehsalat | 9,280 | 1,309 |
| Tikinti | 3,192 | 16 |
| Kənd təsərrüfatı | 2,065 | 905 |
| Energetika | 2,014 | - |
| Sair | 801 | 2546 |
| | 122,839 | 47,901 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | (3,847) | (1,327) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **118,992** | **46,574** |

Fiziki şəxslərə verilən kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| İstehlak kreditləri | 49,733 | 18,091 |
| Nəqliyyat vasitəsi üçün kreditlər | 31,794 | 12,760 |
| İpoteka kreditləri | 2,063 | - |
| Sair | 515 | 978 |
| | 84,105 | 31,829 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | (2,634) | (882) |
| **Cəmi fiziki şəxslərə verilmiş kreditlər** | **81,471** | **30,947** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə müştərilərə verilmiş kreditlər üzrə maksimum kredit riski müvafiq olaraq 118,992 min manat və 46,574 min manat olmuşdur. 31 dekabr 2007 və 2006-cı il tarixlərinə Bank tərəfindən müştərilərə verilmiş kredit öhdəlikləri və overdraftlar üzrə maksimum kredit riski müvafiq olaraq 10,955 min manat və 3,184 min manat olmuşdur.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə müştərilərə verilmiş kreditlərə müvafiq olaraq 1,494 min manat və 521 min manat məbləğində hesablanmış faiz gəliri daxil idi.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə müştərilərə verilmiş kreditlərə müvafiq olaraq 4,856 min manat və 115 min manat məbləğində kreditlər daxil olmuşdur ki, onların da hər birinin ayrı-ayrılıqda dəyərsizləşdiyi müəyyən edilmişdir. 31 dekabr 2007-ci il tarixinə bu cür kreditlər ədalətli dəyəri 12,627 min manat olan (2006-cı il: sıfır) daşınmaz əmlakla təmin edilmişdir.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə maliyyə lizinqinə xalis investisiyaların tərkib hissələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2007-ci il |
|---|---|
| Bir ildən az | 1,321 |
| 1 ildən artıq lakin 5 ildən geç olmayaraq | 2,001 |
| Cəmi minimum lizinq ödənişləri | 3,322 |
| Təxirə salınmış maliyyə xərcləri çıxılmaqla | (768) |
| **Alınmalı maliyyə lizinqi** | **2,554** |
| Cari hissə | 1,016 |
| Uzun müddətli hissə | 1,538 |
| **Alınmalı maliyyə lizinqi** | **2,554** |

## 15. SATILA BİLƏN İNVESTİSİYALAR

Satıla bilən investisiyalar aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Borc qiymətli kağızları | 2,001 | 5,037 |
| Səhm qiymətli kağızları | 162 | 147 |
| | 2,163 | 5,184 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | (3) | (5) |
| **Cəmi satıla bilən investisiyalar** | **2,160** | **5,179** |

| | Nominal üzrə faiz % | 31 dekabr 2007-ci il | Nominal üzrə faiz % | 31 dekabr 2006-cı il |
|---|---|---|---|---|
| **Borc qiymətli kağızları** | | | | |
| *Azərbaycan Respublikasının Milli Bankı* | 7.67% | 2,001 | 13.96% | 4,775 |
| *Azərbaycan Respublikasının Maliyyə Nazirliyi* | - | - | 11.99% | 153 |
| *Bank Standard ASC* | - | - | 10.32% | 109 |
| | | **2,001** | | **5,037** |

| | Təsisçi payı % | 31 dekabr 2007-ci il | Təsisçi payı % | 31 dekabr 2006-cı il |
|---|---|---|---|---|
| **Səhm qiymətli kağızları** | | | | |
| *Bob Broker MMC* | 100% | 75 | - | - |
| *Azərbaycan Respublikasının Beynəlxalq Bankı SKB* | 0.04% | 47 | 0.04% | 47 |
| *Milli Kart MMC* | 1% | 40 | 1% | 40 |
| *Bakı Fond Birjası QSC* | - | - | 5.56% | 60 |
| | | 162 | | 147 |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | | (3) | | (5) |
| **Cəmi satıla bilən investisiyalar** | | **159** | | **142** |

31 dekabr 2007 və 2006-cı il tarixlərində bitən illər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlarda hərəkətlər 5 saylı qeyddə açıqlanır.

Bob Broker LTD bu maliyyə hesabatlarında konsolidə edilməmişdir, çünki belə konsolidasiyanın bütünlükdə maliyyə hesabatlarına mühüm təsiri olmayacaq.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə borc qiymətli kağızlarına daxil edilmiş hesablanmış faiz gəliri müvafiq olaraq 7 min manat və 31 min manat təşkil etmişdir.

## 16. ƏMLAK VƏ AVADANLIQ

Əmlak və avadanlıq aşağıdakılardan ibarətdir:

| | Torpaq və binalar | Mebel və avadanlıq | Kompüterlər və rabitə avadanlığı | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Başa çatmamış tikililər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin/yenidən qiymətləndirilən dəyər** | | | | | | | |
| 31 dekabr 2005-ci il | 3,989 | 790 | 517 | 103 | 9 | 105 | 5,513 |
| Əlavələr | 72 | 316 | 208 | 1 | - | 317 | 914 |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivlərinə köçürmələr | (383) | (34) | - | - | - | - | (417) |
| Silinmələr | - | - | (1) | (15) | (1) | (422) | (439) |
| 31 dekabr 2006-cı il | 3,678 | 1,072 | 724 | 89 | 8 | - | 5,571 |
| Əlavələr | 83 | 369 | 386 | 1 | 4 | - | 843 |
| Yenidən qiymətləndirmə | 9,064 | - | - | - | - | - | 9,064 |
| Köçürmələr | - | - | (2) | - | 2 | - | - |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivlərindən köçürmə | 804 | 34 | - | - | - | - | 838 |
| Silinmələr | - | (55) | (23) | - | - | - | (78) |
| 31 dekabr 2007-ci il | 13,629 | 1,420 | 1,085 | 90 | 14 | - | 16,238 |
| **Yığılmış köhnəlmə** | | | | | | | |
| 31 dekabr 2005-ci il | 567 | 299 | 263 | 55 | 4 | - | 1,188 |
| İl üzrə amortizasiya xərcləri | 162 | 164 | 121 | 19 | 1 | - | 467 |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivlərinə köçürmələr | (263) | (6) | - | - | - | - | (269) |
| Silinmələr üzrə ləğv edilmiş | - | (9) | - | (11) | (1) | - | (21) |
| 31 dekabr 2006-cı il | 466 | 448 | 384 | 63 | 4 | - | 1,365 |
| İl üzrə amortizasiya xərcləri | 249 | 223 | 160 | 11 | 3 | - | 646 |
| Yenidən qiymətləndirmə | 1,941 | - | - | - | - | - | 1,941 |
| Köçürmələr | - | 8 | (8) | - | - | - | - |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivlərindən köçürmə | 263 | 16 | - | - | - | - | 279 |
| Silinmələr üzrə ləğv edilmiş | - | (49) | (23) | - | - | - | (72) |
| 31 dekabr 2007-ci il | 2,919 | 646 | 513 | 74 | 7 | - | 4,159 |
| **Xalis qalıq dəyəri** | | | | | | | |
| **31 dekabr 2007-ci il** | **10,710** | **774** | **572** | **16** | **7** | **-** | **12,079** |
| **31 dekabr 2006-cı il** | **3,212** | **624** | **340** | **26** | **4** | **-** | **4,206** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə əmlak və avadanlığa müvafiq olaraq 356 min manat və 235 min manat məbləğində tam köhnəlmiş aktivlər daxil idi.

31 dekabr 2007-ci il tarixinə Bankın sahib olduğu torpaq və binalar müstəqil qiymətləndiricinin hesabatına uyğun olaraq bazar dəyəri ilə yenidən qiymətləndirilmişdir. Onların ədalətli dəyərinin qiymətləndirilməsi üçün aşağıdakı metodlardan istifadə edilmişdir: diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti metodu (gəlir yanaşması), inteqrasiya edilmiş gəlirin hesablanması metodu (xərc metodu), satışın müqayisəsi metodu (müqayisəli yanaşma). Yekun dəyərin hesablanması üçün informasiyanın etibarlı və tam olmasından, qiymətləndirilən əmlakın xüsusiyyətlərindən və digər amillərdən asılı olaraq müxtəlif yanaşmaları istifadə etməklə əldə olunmuş nəticələrə bəzi ölçülər tətbiq edilmişdir.

Nəticədə, 31 dekabr 2007 və 2006-cı il tarixlərinə torpaq və binaların balans dəyərləri müvafiq olaraq 10,710 min manat və 3,212 min manat olmuşdur. Əgər torpaq və binalar yığılmış köhnəlmə və dəyərsizləşmə zərərləri çıxılmaqla tarixi dəyərlə uçota alınsa, 31 dekabr 2007 və 2006-cı il tarixlərinə onun balans dəyəri müvafiq olaraq 4,533 min manat və 1,556 min manat olar.

## 17. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2007-ci il** | **31 dekabr 2006-cı il** |
|---|---|---|
| Qabaqcadan ödənişlər və alınacaq vəsaitlər | 572 | 45 |
| Plastik kartlarla əməliyyatlar üzrə yerinə yetirilməmiş ödənişlər və pul köçürmələri | 220 | 265 |
| Qeyri-maddi aktivlər | 106 | 125 |
| Sair | 22 | 18 |
| | **920** | **453** |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat çıxılmaqla | - | (17) |
| **Cəmi digər aktivlər** | **920** | **436** |

31 dekabr 2007 və 2006-cı il tarixlərində bitən illər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlarda hərəkətlər 5 saylı qeyddə açıqlanır.

| | Qeyri-maddi aktivlər |
|---|---|
| **İlkin dəyər** | |
| 31 dekabr 2005-ci il | 185 |
| Əlavələr | 42 |
| Silinmələr | (35) |
| 31 dekabr 2006-cı il | 192 |
| Silinmələr | (4) |
| 31 dekabr 2007-ci il | 188 |
| **Yığılmış amortizasiya** | |
| 31 dekabr 2005-ci il | 53 |
| İl üzrə amortizasiya xərcləri | 19 |
| Silinmələr üzrə ləğv edilmiş | (5) |
| 31 dekabr 2006-cı il | 67 |
| İl üzrə amortizasiya xərcləri | 17 |
| Silinmələr | (2) |
| 31 dekabr 2007-ci il | 82 |
| **Xalis qalıq dəyəri** | |
| **31 dekabr 2007-ci il** | **106** |
| **31dekabr 2006-cı il** | **125** |

Qeyri-maddi aktivlərə proqram təminatı və lisenziyalar daxildir.

## 18. BANKLARA VƏ DİGƏR KREDİT TƏŞKİLATLARINA ÖDƏNİLMƏLİ VƏSAİTLƏR

Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Bank olmayan maliyyə təşkilatlarının depozitləri | 14,111 | - |
| Banklardan alınan kreditlər | 12,181 | 2,280 |
| Avropa Yenidənqurma və İnkişaf Bankından alınmış kreditlər | 11,254 | 4,521 |
| Sahibkarlığa Kömək Milli Fondundan alınan kreditlər | 6,160 | 3,071 |
| Asiya İnkişaf Bankından alınan kreditlər | 5,107 | - |
| Bankların tələbli depozitləri | 4,232 | 37 |
| KfW-dan alınan kreditlər | 2,329 | 2,294 |
| Azərbaycan İpoteka Fondundan alınan kreditlər | 1,943 | 31 |
| Digər maliyyə təşkilatlarının tələbli depozitləri | 564 | - |
| **Cəmi banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər** | **57,881** | **12,234** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə banklara ödənilməli vəsaitlərə müvafiq olaraq 1,058 min və 112 min manat məbləğində hesablanmış faiz xərcləri daxil idi.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə Bank müvafiq olaraq 8 və 3 maliyyə təşkilatlarından kreditlər və avanslar almışdır ki, onların da hər biri ayrı-ayrılıqda Bankın səhmdar kapitalının 10%-dən artıq olmuşdur.

31 dekabr 2007-ci il tarixinə banklara ödənilməli vəsaitlərə 2,113 min manat məbləğində subordinasiya borcu daxil edilmişdir. Kreditlərə illik 15% hesablanır və onlar 2017-ci ilin noyabr ayında geri qaytarılmalıdır. Bank ləğv edildiyi və ya müflisləşdiyi halda bu borcun geri ödənilməsi Bankın bütün digər kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirməsindən asılıdır.

## 19. MÜŞTƏRİ HESABLARI

Müştəri hesabları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Müddətli depozitlər | 45,309 | 26,017 |
| Tələb əsasında yenidən ödənilən depozitlər | 19,017 | 13,362 |
| Bloklaşdırılmış hesablar | 126 | 2,402 |
| **Cəmi müştəri hesabları** | **64,452** | **41,781** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə müştəri hesablarına daxil edilən hesablanmış faiz xərcləri müvafiq olaraq 1,558 min manat və 254 min manat təşkil etmişdir.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə 527 min manat və 218 min manat məbləğində müştəri hesabları müştərilərə verilmiş kreditlər və avanslara qarşı zəmanət kimi saxlanmışdır.

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| **İqtisadi sahələr üzrə təhlil:** | | |
| Fiziki şəxslər | 49,061 | 26,798 |
| Ticarət və xidmətlər | 7,232 | 1,671 |
| Energetika | 5,965 | 6,903 |
| İstehsalat | 511 | 2,455 |
| Nəqliyyat və rabitə | 320 | 330 |
| Tikinti | 271 | 161 |
| Dövlət təşkilatları | 47 | 121 |
| Kənd təsərrüfatı | 15 | 2 |
| Sair | 1,030 | 3,340 |
| **Cəmi müştəri hesabları** | **64,452** | **41,781** |

## 20. BURAXILMIŞ BORC QİYMƏTLİ KAĞIZLARI

Borc qiymətli kağızları aşağıdakılardan ibarətdir:

| | Ödəniş tarixi ay/il | İllik kupon dərəcəsi % | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|---|---|
| Manatla ifadə olunmuş istiqrazlar - AZ200100536 | 13/08/2008 | 14% | 2,035 | 2,095 |
| Manatla ifadə olunmuş istiqrazlar - AZ200300536 | 18/08/2008 | 14% | 2,100 | - |
| Manatla ifadə olunmuş istiqrazlar - AZ200400536 | 18/02/2009 | 13.5% | 1,013 | - |
| Manatla ifadə olunmuş istiqrazlar - AZ200500539 | 18/03/2009 | 14% | 1,005 | - |
| Manatla ifadə olunmuş istiqrazlar - AZ200200536 | 06/12/2007 | 14% | - | 1,008 |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | | | **6,153** | **3,103** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə buraxılmış borc qiymətli kağızlarına müvafiq olaraq 153 min manat və 103 min manat məbləğində hesablanmış faiz xərci daxil idi.

## 21. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| Hesablanmış xərclər | 419 | 34 |
| Ödənilməli dividentlər | 269 | 166 |
| Yerinə yetirilməli ödənişlər | 115 | 149 |
| Mənfəət vergisindən başqa vergilər | 48 | 79 |
| Zəmanətlər və digər öhdəliklər üçün ehtiyatlar | 32 | - |
| Sair | 1 | 1 |
| **Cəmi digər öhdəliklər** | **884** | **429** |

31 dekabr 2007 və 2006-cı il tarixlərində bitən illər üzrə zəmanətlər və digər öhdəliklər üçün ehtiyatlarda hərəkətlər 5 saylı qeyddə açıqlanır.

## 22. SƏHMDAR KAPİTALI

31 dekabr 2007 və 2006-cı il tarixlərinə təsdiq olunmuş, buraxılmış və tam ödənilmiş səhmdar kapitalı müvafiq olaraq 6,800 min manat təşkil etmişdir və hər birinin nominal dəyəri 2 manat olan 3,400,000 adi səhmlərdən ibarət olmuşdur. Hər bir səhm səhmdara 1 səs hüququ verir.

2007 və 2006-cı ildə Bank 2006 və 2005-ci maliyyə illəri üçün adi səhmlərlə bağlı 917 min manat və 1,479 min manat məbləğində dividentlər elan etmişdir.

## 23. ÖHDƏLİKLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

Normal fəaliyyəti zamanı Bank müştərilərinin tələblərinə cavab vermək üçün balansdankənar riskə malik maliyyə alətləri müqavilələrində tərəf kimi iştirak edir. Müxtəlif dərəcəli kredit risklərini özündə birləşdirən bu alətlər üzrə qalıqlar balansda öz əksini tapmır.

Kreditin uzadılması üçün şərti öhdəliklər və öhdəliklər üzrə Bankın maksimum kredit itkisinə məruz qalması, digər tərəfin öz öhdəliyini yerinə yetirməməsi məs, bütün qarşılıqlı iddialar, girov və ya qiymətli kağızların dəyərsizləşməsi sübutu aşkar olunduqda, bu alətlərin müqavilə məbləğləri ilə ifadə olunur.

Bank balansdankənar öhdəliklərin idarə edilməsinə balans üzrə əməliyyatlar üçün istifadə etdiyi kredit nəzarətini və idarəetmə siyasətini tətbiq edir.

Şərti öhdəliklər üzrə zərərlər üçün ehtiyat 31 dekabr 2007-ci il tarixinə 32 min manat olmuşdur.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə nominal və ya müqavilə məbləğləri və risk üzrə ölçülmüş məbləğlər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2007-ci il | 31 dekabr 2006-cı il |
|---|---|---|
| **Şərti öhdəliklər və kredit öhdəlikləri** | | |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 8,036 | 3,184 |
| Verilmiş zəmanətlər və oxşar öhdəliklər | 3,545 | 3,441 |
| Akkreditivlər və şərti öhdəliklərlə bağlı digər əməliyyatlar | - | 2,396 |
| **Cəmi şərti öhdəliklər və kredit öhdəlikləri** | **11,581** | **9,021** |

31 dekabr 2007 və 2006-cı il tarixlərinə kreditlərə və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklərə müvafiq olaraq 10,955 min manat və 3,184 min manat məbləğində daxil edilən vəsaitlər Bankın aşağıdakı şərtləri əsasında və istifadə olunmamış kredit xətlərinin hədləri çərçivəsində kreditləri uzatmaq öhdəliyini əks etdirir: borcalan ilkin istifadə olunmamış hədlər çərçivəsində öz kreditinin uzadılmasını istədikdə hər dəfə banka müraciət etməlidir; Bank maliyyələşmənin davam etdirilməsini borcalanın maliyyə vəziyyəti, kredit ödəmə qabiliyyəti və digər kredit riski xüsusiyyətləri əsasında təsdiq edə bilər.

***Kapital qoyuluşu öhdəlikləri*** – 31 dekabr 2007-ci il tarixinə Bankın heç bir mühüm kapital öhdəlikləri olmamışdır.

***Məhkəmə işləri*** - Vaxtaşırı və biznesin normal gedişi zamanı, müştərilər və partnyorlar tərəfindən Banka qarşı iddialar qaldırıla bilər. Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixə Banka qarşı heç bir iddia olmamışdır.

***Vergilər*** – Azərbaycan Respublikasının sahibkarlıq və xüsusən də, vergi qanunvericiliyində maddələrin müxtəlif təfsir dərəcələri yarana bilər. Bundan əlavə, vergi qanunvericiliyi rəhbərlik və vergi orqanları tərəfindən fərqli şəkildə şərh olunduğundan, vergi orqanları tərəfindən əməliyyatlarla bağlı iddialar qaldırıla və nəticədə Bank əlavə vergi, penyalar və faiz ödəmək məcburiyyətində qala bilər. Bank hesab edir ki, o artıq bütün vergi ödəmələrini yerinə yetirib və bu səbəbdən də maliyyə hesabatlarında hər hansı potensial öhdəliklər üzrə heç bir ehtiyat nəzərdə tutulmamışdır. Vergi orqanları vergi ödəyicisinin fəaliyyətini yalnız son 3 təqvim ili üzrə yoxlamaq hüququna malikdir.

***Pensiya və təqaüd planları*** - İşçilər Azərbaycan Respublikasının qanunvericiliyinə və qaydalarına müvafiq olaraq dövlətdən təqaüd müavinətləri alır. 31 dekabr 2007 və 2006-cı il tarixlərinə Bankın hazırkı və yaxud keçmiş işçiləri üçün heç bir əlavə təqaüdlər, təqaüd sonrası tibbi xidmət, sığorta və ya kompensasiyalar üzrə öhdəliyi olmamışdır.

***Əməliyyat mühiti*** - Bank əsas biznes fəaliyyətini Azərbaycanda aparır. Biznes mühitinə təsir edən qaydalar və qanunlar sürətli dəyişikliklərə məruz qalır və siyasətdə və biznes mühitində baş verən mənfi dəyişikliklər Bankın aktivlərini və əməliyyatlarını riskə məruz qoya bilər.

## 24. BALANS HESABATI TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

17 mart 2008-ci il tarixində keçirilmiş səhmdarların iclasında verilən qərara əsasən 2007-ci maliyyə ilinin nəticələri üzrə dividentlər verilməyəcəkdir.

## 25. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

24 saylı MUBS-a əsasən əlaqəli tərəflər və ya Bankın əlaqəli tərəfləri ilə əməliyyatlar dedikdə aşağıdakılar nəzərdə tutulur:

(a) Birbaşa və ya dolayı üsulla bir və ya daha çox vasitəçilərin köməyi ilə nəzarət edən tərəflər və ya Bankın nəzarətində saxlanılan, ya da ümumi nəzarətdə olan müəssisələr (Bura ana müəssisələr, filiallar və tabeçilikdə olan müəssisələr aiddir); Bankda paya malik olduğundan Bank üzrə əhəmiyyətli təsirə malik olan tərəflər; Bank üzrə birgə nəzarətə malik olan tərəflər;

(b) Əlaqəli müəssisələr – Bankın mühüm təsiri altında olan və sərmayəçinin nə filialı, nə də birgə müəssisəsi olmayan müəssisələr;

(c) Bankın iştirakçı olduğu birgə müəssisələr;

(d) Bankın və ya onun ana müəssisəsinin əsas idarəedici heyətinin üzvləri;

(e) (a) və (d) bəndlərində istinad edilən hər hansı fiziki şəxslərin yaxın ailə üzvləri;

(f) (d) və ya (e) bəndlərində birbaşa və ya dolayı yolla istinad edilən hər hansı fiziki şəxs tərəfindən nəzarət edilən, birgə nəzarət edilən və ya mühüm təsiri olan və ya səsvermədə böyük payı olan müəssisə - tərəflər;

(g) Bankın və ya Bankın əlaqəli tərəfi olan hər hansı müəssisənin işçiləri üçün əmək fəaliyyətinin başa çatması ilə əlaqədar müavinət planları.

Hər bir əlaqəli tərəflə münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. 31 dekabr 2007 və 2006-cı il tarixlərinə Bankın əlaqəli tərəflərlə aşağıdakı əməliyyatları olmuşdur:

| | **31 dekabr 2007-ci il** | | **31 dekabr 2006-cı il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** |
| Müştərilərə verilmiş kreditlər | | 122,839 | | 47,901 |
| - *ana müəssisə və ana müəssisənin törəmə müəssisələri* | 3,071 | | - | |
| - *müəssisənin əsas idarəetmə heyəti* | 64 | | 31 | |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat | | 3,847 | | 1,327 |
| - *müəssisənin əsas idarəetmə heyəti* | 4 | | 1 | |
| Müştəri hesabları | | 64,452 | | 41,781 |
| - *ana müəssisə və ana müəssisənin törəmə müəssisələri* | 1,967 | | 382 | |
| - *müəssisənin əsas idarəetmə heyəti* | 1 | | 9 | |
| - *digər əlaqəli tərəflər* | 1 | | - | |
| Digər öhdəliklər | | 884 | | 429 |
| - *ana müəssisə və ana müəssisənin törəmə müəssisələri* | 269 | | 166 | |
| - *müəssisənin əsas idarəetmə heyəti* | - | | 1 | |
| Verilmiş zəmanətlər | | 3,545 | | 3,441 |
| - *müəssisənin əsas idarəetmə heyəti* | 5 | | 30 | |

| | **31 dekabr 2007-ci il tarixinə bitən il** | | **31 dekabr 2006-cı il tarixinə bitən il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** |
| **Əsas idarəedici heyətin kompensasiyası:** | | | | |
| Qısamüddətli işçi müavinətləri | 549 | 3,948 | 322 | 2,108 |

31 dekabr 2007 və 2006-cı il tarixinə bitən illər üzrə Bankın əlaqəli tərəflərlə apardığı əməliyyatlar nəticəsində mənfəət və zərər haqqında hesabata daxil edilən məbləğlər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2007-ci il tarixinə bitən il | | 31 dekabr 2006-cı il tarixinə bitən il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** |
| Faiz gəliri | | 17,842 | | 8,630 |
| *- ana müəssisə və ana müəssisənin törəmə müəssisələri* | 200 | | - | |
| *- müəssisənin əsas idarəetmə heyəti* | 3 | | 2 | |
| Faiz xərci | | 7,881 | | 2,756 |
| | 2 | | 1 | |
| *- müəssisənin əsas idarəetmə heyəti* | 9 | | 8 | |
| *- digər əlaqəli tərəflər* | 31 | | - | |
| Dəyərsizləşmə zərərləri üçün ehtiyat | | 2,537 | | 862 |
| *- müəssisənin əsas idarəetmə heyəti* | 4 | | 1 | |
| Haqq və komissiya gəliri | | 3,616 | | 2,535 |
| *- ana müəssisə və ana müəssisənin törəmə müəssisələri* | 92 | | 3 | |
| Əməliyyat xərci | | 6,686 | | 3,944 |
| *- ana müəssisə və ana müəssisənin törəmə müəssisələri* | 258 | | 164 | |
| *- müəssisənin əsas idarəetmə heyəti* | 549 | | 322 | |

## 26. SEQMENT HESABATI

Bankın fəaliyyəti əhəmiyyətli dərəcədə inteqrasiya etmişdir və əsasən bank sektoru ilə bağlıdır. Müvafiq olaraq, "Seqment hesabatı" haqqında MUBS 14-un məqsədləri üçün Bank vahid seqment kimi hesabat edilir. Bankın aktivləri Azərbaycan Respublikasında yerləşir və onun gəlirlərinin əksər hissəsi və xalis mənfəəti Azərbaycan Respublikasındakı fəaliyyətindən yaranır. Bankın əməliyyatlarına banklarla, hüquqi və fiziki şəxslərlə əməliyyatlar daxildir. Digər əməliyyat üzrə qalıqlar və onun nəticələri haqqında məlumat maliyyə hesabatlarının müvafiq qeydlərində öz əksini tapmışdır.

## 27. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Maliyyə alətlərinin bazar dəyərlərinin açıqlanması 32 saylı "Maliyyə alətləri: Məlumatın Açıqlanması və Təqdim Edilməsi" və 39 saylı "Maliyyə alətləri: Tanınma və Qiymətləndirilmə" Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq həyata keçirilir. Ədalətli dəyər likvidasiya satışı və ya məcburi satış əməliyyatı deyil, kommersiya əməliyyatı zamanı məlumatlandırılmış tərəflər arasında alətin mübadilə edildiyi məbləğlə müəyyənləşdirilir. Bundan belə nəticə çıxarmaq olar ki, burada təqdim edilmiş göstəricilər Bank tərəfindən saxlanılan xüsusi bir maliyyə alətinin açıq bazarda satışından həqiqətən əldə ediləcək qiymətləri əks etdirməyə də bilər.

31 dekabr 2007 və 2006-cı il tarixlərinə maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyərinin Bankın balansındakı müvafiq balans dəyəri ilə müqayisəsi aşağıdakı cədvəldə verilmişdir:

| | 31 dekabr 2007-ci il | | 31 dekabr 2006-cı il | |
|---|---|---|---|---|
| | Balans dəyəri | Ədalətli dəyər | Balans dəyəri | Ədalətli dəyər |
| Nağd pul və Azərbaycan Respublikasının Milli Bankındakı qalıqlar | 12,721 | 12,721 | 9,827 | 9,827 |
| Banklardan alınacaq vəsaitlər | 5,125 | 5,125 | 4,430 | 4,430 |
| Satıla bilən investisiyalar (borc alətləri) | 2,001 | 2,001 | 5,037 | 5,037 |
| Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər | 57,881 | 57,881 | 12,234 | 12,234 |
| Müştəri hesabları | 64,452 | 64,452 | 41,781 | 41,781 |
| Buraxılmış borc qiymətli kağızları | 6,153 | 6,153 | 3,103 | 3,103 |

Müştərilərə verilmiş kreditlərin ədalətli dəyərinin düzgün qiymətləndirilməsi mümkün deyildir belə ki, Azərbaycanda bu alətlər üçün bazar mövcud deyildir.

Satıla bilən kapital investisiyalarının ədalətli dəyərinin düzgün qiymətləndirilməsi mümkün deyildir onların fəal bazarda təyin olunmuş qiymətləri yoxdur.

## 28. TƏNZİMLƏYİCİ MƏSƏLƏLƏR

Qanunvericilikdə nəzərdə tutulmuş kəmiyyət ölçüləri tələb edir ki, Bank aşağıdakı cədvəldə göstərdiyi qaydada ümumi (12%) və 1-ci dərəcəli kapitalın (6%) risk dərəcələri üzrə qiymətləndirilmiş aktivlərinə qarşı minimal nisbət və əmsallarını saxlamaq üçün, kapitalın adekvatlığını təmin etsin.

Kapitalın adekvatlıq əmsalı Bazel Komitəsinin təsdiq edilmiş prinsipləri əsasında dəyərsizləşmə zərərləri üçün ehtiyatlar çıxılmaqla aktivlərə və balansdankənar öhdəliklərə aşağıdakı risk dərəcələrini tətbiq etməklə hesablanmışdır.

31 dekabr 2007-ci il tarixinə kapitalın adekvatlıq məqsədləri üçün Bankın 15.44 % və 9.19 % ilə məcmu kapitalı və 1-ci dərəcəli kapital məbləği müvafiq olaraq 22,369 min manat və 13,321 min manat olmuşdur.

31 dekabr 2006-cı il tarixinə kapitalın adekvatlıq məqsədləri üçün Bankın 23.08 % və 20.13 % ilə məcmu kapitalı və 1-ci dərəcəli kapital məbləği müvafiq olaraq 12,972 min manat və 11,314 min manat olmuşdur.

31 dekabr 2007-ci il tarixinə Bank kapitalın adekvatlıq məqsədləri üçün ümumi kapitalı hesablayarkən 2,113 min manat məbləğində subordinasiya borcunu daxil etmişdir ki, bu da 1-ci dərəcəli kapitalın 50%-i ilə məhdudlaşır. Bank ləğv edildiyi və ya müflisləşdiyi halda bu borcun geri ödənilməsi Bankın bütün digər kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirməsindən asılıdır.

## 29. KAPİTALIN İDARƏ EDİLMƏSİ

Bank öz kapitalını idarə etməklə borc və kapital qalıqlarını optimallaşdıraraq səhmdarların gəlirlərini artırarkən Bankın struktur vahidlərinin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərə bilməsini təmin edir.

Bank kapitalının strukturu 18 saylı qeyddə açıqlanmış subordinasiya borcunun daxil olduğu borcdan və kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabatda açıqlanan buraxılmış kapitalın, ehtiyatların və bölüşdürülməmiş mənfəətin daxil olduğu ana müəssisənin kapital sahiblərinə məxsus kapitaldan ibarətdir.

İdarəetmə heyəti kapitalın strukturunu aylıq əsasda nəzərdən keçirir. Bu yoxlamanın bir hissəsi kimi, İdarə heyəti kapitalın dəyərini və kapitalın hər bir növü ilə bağlı olan riskləri nəzərdən keçirir. İdarə Heyətinin tövsiyələri əsasında, Bank özünün ümumi kapitalını dividentlər ödəməklə, yeni səhmlər buraxmaqla eləcə də yeni borclar verməklə və ya mövcud borcların geri alınması ilə tənzimləyir.

Bankın ümumi kapital riskinin idarə edilməsi qaydasına 2006-cı ildən etibarən dəyişiklik edilməmişdir.

## 30. RİSKİN İDARƏ EDİLMƏSİ SİYASƏTLƏRİ

Riskin idarə edilməsi bank biznesinin əsasını təşkil etməklə Bankın əməliyyatlarında mühüm əhəmiyyət daşıyır. Bankın əməliyyatlarına xas olan əsas risklər aşağıdakılardır:

- Kredit riski
- Likvidlik riski
- Bazar riski

Bank təsdiq edir ki, riskin idarə edilməsi proseslərinin effektiv və səmərəli saxlanılması çox vacib əhəmiyyət kəsb edir. Bunu həyata keçirmək üçün Bank riskin idarə edilməsi çərçivəsini yaratmışdır ki, bunun da əsas məqsədi Bankı riskdən qorumaq və fəaliyyət məqsədlərinə nail olmağa kömək etməkdir. Riskin idarə edilməsi çərçivəsi vasitəsilə Bank aşağıdakı riskləri idarə edir:

### Kredit riski

Bank kredit riskinə məruz qaldıqda maliyyə alətinə sahib olan bir tərəf öhdəliyi yerinə yetirə bilmir və nəticədə bu, digər tərəfə maliyyə itkisinə səbəb olur.

Kredit Komitəsi və Riskin İdarəedilməsi Komitəsi müəyyənləşdirilən səlahiyyətlər çərçivəsində risklərin idarə edilməsini və monitorinqini həyata keçirir. Kredit Komitəsi hər hansı təsdiqləmə verməzdən əvvəl o, kreditin qiymətləndirilməsi üzrə (borcalanın maliyyə hesabatları, kreditin məbləği və ödəniş tarixi, təklif olunan girov və sair.) bütün halları təhlil edir. Kredit departamentinin, Filialın kredit bölmələrinin, Riskin idarə edilməsi departamentinin rəhbərləri və kredit təşkilatının rəhbəri gündəlik riskin idarə edilməsini həyata keçirir.

Bank bir müştəri və ya bir qrup müştərilər üçün və müəyyən sahə (coğrafi) seqmentləri üzrə üzərinə götürdüyü kredit riskinin müxtəlif səviyyələrini tətbiq edir. Riskin İdarəetmə Komitəsi müntəzəm olaraq borcalan tərəfindən və məhsul üzrə (sənaye sektoru, region üzrə) yaranan kredit riski dərəcəsi üçün hədləri təsdiq edir. Hər hansı bir borcalan üzrə hədlər Azərbaycan Respublikası Milli Bankının qaydaları ilə tənzimlənir. Hər hansı bir borcalan üzrə ayırmalar Riskin İdarə edilməsi Komitəsi və Aktivlərin və Öhdəliklərin İdarəetmə Komitəsi tərəfindən müəyyən edilən parametrlər çərçivəsində Kredit Komitəsinin tətbiq etdiyi balans ayırmalarını və ya balansdankənar ayırmaları əhatə edən sub-limitlərlə məhdudlaşdırılır. Müəyyən edilən hədlərdən yuxarı olan kreditlər Müşahidə Şurası tərəfindən təsdiq olunur. Məhdudiyyətlər üzrə faktiki təsirin gündəlik monitorinqi aparılır.

Bir çox hallarda bank kreditlər üzrə şəxsi və korporativ zəmanətlər alır ki, onların da əksər hissəsini daşınmaz əmlak təşkil edir. Bu cür risklərin mütəmadi monitorinqi aparılır və onlar tez-tez yoxlanılır. Krediti uzatmaq öhdəlikləri kreditin istifadə olunmamış hissələrinin kredit, zəmanət, ya da akkreditiv şəklində ifadə edilməsidir. Balansarxası maliyyə alətlərinin kredit riski qarşı tərəfin öz müqavilə öhdəliklərini yerinə yetirmək iqtidarının olmaması nəticəsində yaranmış ehtimal edilən itkilər kimi müəyyən olunur. Kreditin uzadılması öhdəlikləri üzrə kredit riski ilə əlaqədar Bank ən çoxu ümumi istifadə olunmamış öhdəliklərin məbləği həcmində itkilərə məruz qala bilər. Bununla belə, itkinin təxmini miqdarı ümumi istifadə olunmamış öhdəliklərdən az olur, çünki kreditin uzadılması barədə bir çox öhdəliklər xüsusi kredit standartları aid edilən müştərilərdən asılı olur. Bank şərti öhdəliklərə balans hesabatının maliyyə alətlərinə tətbiq etdiyi eyni kredit siyasətini tətbiq edir, yəni Bankın tətbiq etdiyi siyasət risklərin azaldılması üçün hədləri nəzərə almaqla kreditlərin verilməsi prosesinin təsdiq edilməsi proseduruna və cari monitorinqinə əsaslanır. Bank kredit öhdəliklərinin ödəniş müddətinə də nəzarət edir, çünki uzunmüddətli öhdəliklər ümumən qısamüddətli öhdəliklərə nisbətən daha yüksək kredit riski daşıyırlar.

**Maksimum risk**

Bankın kredit riskinə maksimum məruz qalma səviyyəsi əhəmiyyətli dərəcədə dəyişir və fərdi risklərdən habelə ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır.

Aşağıdakı cədvəldə maliyyə aktivlərinin və şərti öhdəliklərinin kredit riskinə maksimum məruz qalma səviyyəsi əks olunur. Maliyyə aktivləri üzrə maksimum risk səviyyəsi hər hansı əvəzləşdirmə və ya girovdan əvvəl həmin aktivlərin balans dəyərinə bərabər olur. Maliyyə zəmanətləri və digər şərti öhdəliklər üçün isə maksimum kredit riski zəmanət geri alındığı zaman və ya kredit məbləğinin geri alındıqda öhdəliklərlə bağlı Bank tərəfindən ödənilməli olan maksimum məbləği əks etdirir.

| | Maksimum məruz qalma | Əvəzləşdirmə | Əvəzləşdirmədən sonra xalis məruzqalma | Qoyulmuş girov | 31 dekabr 2007-ci il Girovdan və əvəzləşdirmədən sonra xalis məruz qalma |
|---|---|---|---|---|---|
| Banklardan alınacaq vəsaitlər | 5,125 | - | 5,125 | - | 5,125 |
| Müştərilərə verilmiş kreditlər | 118,992 | 527 | 118,465 | 104,783 | 13,682 |
| Satıla bilən investisiyalar | 2,160 | - | 2,160 | - | 2,160 |
| Verilmiş zəmanətlər və oxşar öhdəliklər | 3,545 | - | 3,545 | 3,545 | - |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 8,036 | - | 8,036 | - | 8,036 |

13,682 min manat məbləğində müştərilərə verilmiş kreditlər kənar tərəflərin zəmanətləri ilə təmin olunmuşdur.

| | Maksimum məruz qalma | Əvəzləşdirmə | Əvəzləşdirmədən sonra xalis məruzqalma | Qoyulmuş girov | 31 dekabr 2006-cı il Girovdan və əvəzləşdirmədən sonra xalis məruz qalma |
|---|---|---|---|---|---|
| Banklardan alınacaq vəsaitlər | 4,430 | - | 4,430 | - | 4,430 |
| Müştərilərə verilmiş kreditlər | 46,574 | 218 | 46,356 | 41,013 | 5,343 |
| Satıla bilən investisiyalar | 5,179 | - | 5,179 | - | 5,179 |
| Verilmiş zəmanətlər və oxşar öhdəliklər | 3,441 | - | 3,441 | 3,441 | - |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 3,184 | - | 3,184 | 669 | 2,515 |

Maliyyə aktivləri beynəlxalq agentliklər (Fitch Ratings) tərəfindən verilən hazırkı reytinqlərlə səviyyələrə ayrılır. Ən yüksək mümkün reytinq AAA-dir. İnvestisiya qrupu üzrə maliyyə aktivlərinin reytinqi AAA – BBB arasında dəyişir. BBB-dən aşağı reytinqə malik olan maliyyə aktivləri spekulyativ dərəcəli kimi təsnifləşdirilir.

Aşağıdakı cədvəldə Bank tərəfindən saxlanılan maliyyə aktivlərinin kredit reytinqləri təqdim olunur:

| | AA | A | BBB | <BBB | Dərəcəsiz | 31 dekabr 2007-ci il Cəmi |
|---|---|---|---|---|---|---|
| Banklardan alınacaq vəsaitlər | 3 | 2,428 | 2,548 | 67 | 79 | 5,125 |
| Müştərilərə verilmiş kreditlər | - | - | - | - | 118,992 | 118,992 |
| Satıla bilən investisiyalar | - | - | - | - | 2,160 | 2,160 |

| | AA | A | BBB | <BBB | Dərəcəsiz | 31 dekabr 2006-cı il Cəmi |
|---|---|---|---|---|---|---|
| Banklardan alınacaq vəsaitlər | 3 | 3,819 | - | 362 | 246 | 4,430 |
| Müştərilərə verilmiş kreditlər | - | - | - | - | 46,574 | 46,574 |
| Satıla bilən investisiyalar | - | - | - | - | 5,179 | 5,179 |

Bank sahəsi adətən özünün maliyyə aktivləri və şərti öhdəliklər vasitəsilə kredit riskinə məruz qalır. Bank Azərbaycan Respublikasında kredit riskinə məruz qalır. Bankın riskin idarə edilməsi qaydalarında qoyulan kredit hədləri və kredit ödəmə qabiliyyəti haqqında təlimatlarının pozulmaması üçün kredit riskinə məruz qalma müntəzəm şəkildə tənzimlənməlidir.

Aşağıdakı cədvəldə dəyərsizləşmiş və vaxtı keçmiş lakin dəyərsizləşməmiş aktivlərin balans dəyəri əks olunmuşdur:

| | | Vaxtı keçmiş lakin dəyərsizləşməmiş maliyyə aktivləri | | | | 31 dekabr 2007-ci il | |
|---|---|---|---|---|---|---|---|
| | Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 0-3 ay | 3-6 ay | 6 aydan-1 ilə qədər | 1 ildən çox | Dəyərsizləşmiş maliyyə aktivləri | Cəmi |
| Banklardan alınacaq vəsaitlər | 5,125 | - | - | - | - | - | 5,125 |
| Müştərilərə verilmiş kreditlər | 20,612 | - | - | - | - | 98,380 | 118,992 |
| Satıla bilən investisiyalar | 2,123 | - | - | - | - | 37 | 2,160 |

| | | Vaxtı keçmiş lakin dəyərsizləşməmiş maliyyə aktivləri | | | | 31 dekabr 2006-cı il | |
|---|---|---|---|---|---|---|---|
| | Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 0-3 ay | 3-6 ay | 6 aydan-1 ilə qədər | 1 ildən çox | Dəyərsizləşmiş maliyyə aktivləri | Cəmi |
| Banklardan alınacaq vəsaitlər | 4,430 | - | - | - | - | - | 4,430 |
| Müştərilərə verilmiş kreditlər | 6,785 | - | - | - | - | 39,789 | 46,574 |
| Satıla bilən investisiyalar | 5,144 | - | - | - | - | 35 | 5,179 |

## Coğrafi təhlil

Aktiv və öhdəliklərin idarəetmə komitəsi qanunvericilikdə və tənzimləyici sahələrdəki risklərlə bağlı nəzarəti həyata keçirir və onun Bankın fəaliyyətinə təsirini müəyyənləşdirir. Bu yanaşma Banka Azərbaycan Respublikasının investisiya mühitindəki potensial zərərləri azaltmaq imkanı verir. Bankın Riskin İdarə edilməsi Komitəsi əsasən Müstəqil Dövlətlər Birliyi və Baltik ölkələrinin banklarına tətbiq olunan ölkə üzrə hədləri müəyyən edir.

Aktiv və öhdəliklər coğrafi cəhətdən aşağıdakı kimi cəmləşmişdir:

| | Azərbaycan | Digər qeyri-İƏİT ölkələri | İƏİT ölkələri | 31 dekabr 2007-ci il Cəmi |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Nağd pul və ARMB-dakı qalıq vəsaitlər | 12,661 | - | 60 | 12,721 |
| Banklardan alınacaq vəsaitlər | 86 | 2,606 | 2,433 | 5,125 |
| Satıla bilən investisiyalar | 2,160 | - | - | 2,160 |
| Müştərilərə verilmiş kreditlər | 118,992 | - | - | 118,992 |
| Əmlak və avadanlıq | 12,079 | - | - | 12,079 |
| Digər aktivlər | 748 | 166 | 6 | 920 |
| **CƏMİ AKTİVLƏR** | **146,726** | **2,772** | **2,499** | **151,997** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Banklara ödənilməli vəsaitlər | 34,390 | 8,089 | 15,402 | 57,881 |
| Müştəri hesabları | 49,759 | 9,610 | 5,083 | 64,452 |
| Buraxılmış borc qiymətli kağızları | - | 6,153 | - | 6,153 |
| Ödənilməli cari mənfəət vergisi | 263 | - | - | 263 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 1,945 | - | - | 1,945 |
| Digər öhdəliklər | 818 | 5 | 61 | 884 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **87,175** | **23,857** | **20,546** | **131,578** |
| **XALİS MÖVQE** | **59,551** | **(21,085)** | **(18,047)** | |

| | Azərbaycan | Digər qeyri-İƏİT ölkələri | İƏİT ölkələri | 31 dekabr 2006-cı il Cəmi |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Nağd pul və ARMB-dakı qalıq vəsaitlər | 9,749 | - | 78 | 9,827 |
| Banklardan alınacaq vəsaitlər | 531 | 78 | 3,821 | 4,430 |
| Satıla bilən investisiyalar | 5,179 | - | - | 5,179 |
| Müştərilərə verilmiş kreditlər | 46,574 | - | - | 46,574 |
| Əmlak və avadanlıq | 4,206 | - | - | 4,206 |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivləri | 541 | - | - | 541 |
| Digər aktivlər | 170 | 266 | - | 436 |
| **CƏMİ AKTİVLƏR** | **66,950** | **344** | **3,899** | **71,193** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Banklara ödənilməli vəsaitlər | 4,537 | 871 | 6,826 | 12,234 |
| Müştəri hesabları | 33,511 | 2,715 | 5,555 | 41,781 |
| Buraxılmış borc qiymətli kağızları | - | 3,103 | - | 3,103 |
| Ödənilməli cari mənfəət vergisi | 270 | - | - | 270 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 404 | - | - | 404 |
| Digər öhdəliklər | 429 | - | - | 429 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **39,151** | **6,689** | **12,381** | **58,221** |
| **XALİS MÖVQE** | **27,799** | **(6,345)** | **(8,482)** | |

**Likvidlik riski**

Likvidlik riski depozitlərin geri götürülməsi və ödəmə müddəti çatan maliyyə alətləri ilə əlaqədar digər maliyyə öhdəliklərini ödəmək üçün vəsaitlərin kifayət olub-olmaması deməkdir.

Aktiv və öhdəliklərin idarəetmə komitəsi (AÖİK) bu növ risklərə Bankın növbəti dövr üzrə strategiyasını müəyyən edərək ödəniş dövrlərinin təhlilini aparmaqla nəzarət edir. Hazırkı likvidlik riski Xəzinədarlıq departamenti tərəfindən idarə olunur ki, bu da hazırkı likvidliyin dəstəklənməsini və pul vəsaitləri axınının optimallaşdırılmasını əhatə edir.

Likvidlik riskini idarə etmək üçün, Bank aktiv/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olan müştəri və bank əməliyyatları üzrə gələcəkdə gözlənilən nağd pul vəsaitinin hərəkətinin gündəlik monitorinqini həyata keçirir. Müşahidə Şurasının təsdiqi ilə AÖİK depozitlərin geri götürülməsi üçün hazır vəsaitlərinin minimal nisbətinə və gözlənilməyən məbləğlərdə geri götürmələri ödəmək üçün banklararası və digər institutlardan alınan kreditlərin minimal səviyyəsinə hədlər qoyur.

Likvidlik və faiz dərəcəsi risklərinin təhlili aşağıdakı cədvəldə verilmişdir. Cədvəldə aşağıdakı məlumatlar təqdim olunur:

(i) Bankdan ödənişin tələb edilə bildiyi ən yaxın müddətdə maliyyə öhdəlikləri üzrə diskontlaşdırılmamış nağd vəsaitlərin (həm faiz həm də əsas nağd vəsaitlər) hərəkətinə əsaslanan qeyri-törəmə maliyyə aktivlərinin müqavilə üzrə qalan ödəniş müddəti;

(ii) Bank tərəfindən müxtəlif dövrlərdə daxil olması gözlənilən nağd vəsaitlər istisna olmaqla, Maliyyə aktivlərinin diskontlaşdırılmamış ödəniş müddətlərinə habelə, həmin aktivlər üzrə əldə olunacaq faizlərə əsaslanmaqla qeyri-törəmə maliyyə aktivləri üçün gözlənilən ödəniş müddəti.

| | Ölçülmüş orta effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Qeyri-müəyyən ödəniş vaxtı | 31 dekabr 2007-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | | |
| Banklardan alınacaq vəsaitlər | 3.59% | 2,555 | - | - | - | - | - | 2,555 |
| Müştərilərə verilmiş kreditlər | 21.51% | 11,169 | 21,219 | 63,322 | 50,843 | 3,202 | - | 149,755 |
| Satıla bilən investisiyalar | 7.67% | 2,007 | - | - | - | - | - | 2,007 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan aktivlər | | 15,731 | 21,219 | 63,322 | 50,843 | 3,202 | - | 154,317 |
| Banklardan alınacaq vəsaitlər | 2.86% | 2,236 | - | - | - | - | - | 2,236 |
| Cəmi müxtəlif dərəcələrlə faiz hesablanan aktivlər | | 2,236 | - | - | - | - | - | 2,236 |
| Cəmi faiz hesablanan aktivlər | | 17,967 | 21,219 | 63,322 | 50,843 | 3,202 | - | 156,553 |
| Nağd pul və ARMB-dakı qalıqlar | | 6,233 | - | - | - | - | 6,488 | 12,721 |
| Banklardan alınacaq vəsaitlər | | 346 | - | - | - | - | - | 346 |
| Digər aktivlər | | 220 | 22 | - | - | - | - | 242 |
| | | **24,766** | **21,241** | **63,322** | **50,843** | **3,202** | **6,488** | **169,862** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınmış kreditlər | | 5,455 | 8,355 | 6,863 | 14,918 | 2,552 | - | 38,143 |
| Müştəri hesabları | 13.22% | 5,604 | 6,106 | 27,014 | 18,279 | 27 | - | 57,030 |
| Buraxılmış borc qiymətli kağızları | 13.92% | - | 279 | 4,486 | 2,069 | - | - | 6,834 |
| Cəmi sabit dərəcə ilə faiz hesablanan öhdəliklər | | 11,059 | 14,740 | 38,363 | 35,266 | 2,579 | - | 102,007 |
| Banklardan və digər maliyyə təşkilatlarından alınmış kreditlər | | 379 | 1,201 | 3,863 | 17,525 | 4,145 | - | 27,113 |
| Cəmi müxtəlif dərəcələrlə faiz hesablanan öhdəliklər | | 379 | 1,201 | 3,863 | 17,525 | 4,145 | - | 27,113 |
| Cəmi faiz hesablanan öhdəliklər | | 11,438 | 15,941 | 42,226 | 52,791 | 6,724 | - | 129,120 |
| Banklardan və digər maliyyə təşkilatlarından alınmış kreditlər | | 1,800 | - | - | - | - | - | 1,800 |
| Müştəri hesabları | | 19,017 | - | - | - | - | - | 19,017 |
| Ödənilməli cari mənfəət vergisi | | - | 263 | - | - | - | - | 263 |
| Digər öhdəliklər | | 115 | 467 | - | - | - | 269 | 851 |
| Maliyyə zəmanəti müqavilələri | | 330 | 100 | 2,737 | 5 | - | 373 | 3,545 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | | 5,963 | - | 1,497 | 576 | - | - | 8,036 |
| | | **38,663** | **16,771** | **46,460** | **53,372** | **6,724** | **642** | **162,632** |
| Likvidlik intervalı | | (13,897) | 4,470 | 16,862 | (2,529) | (3,522) | | |
| Sabit dərəcəli alətlər üçün faiz dərəcəsinin həssaslıq intervalı | | 4,672 | 6,479 | 24,959 | 15,577 | 623 | | |
| Dəyişkən dərəcəli alətlər üçün faiz dərəcəsinin həssaslıq intervalı | | 1,857 | (1,201) | (3,863) | (17,525) | (4,145) | | |
| Faiz dərəcəsinin həssaslıq intervalı | | 6,529 | 5,278 | 21,096 | (1,948) | (3,522) | | |
| **Məcmu faiz dərəcəsinin həssaslıq intervalı** | | **6,529** | **11,807** | **32,903** | **30,955** | **27,433** | | |

| | Ölçülmüş orta effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Qeyri-müəyyən ödəniş vaxtı | 31 dekabr 2006-cı il Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | | |
| Banklardan alınacaq vəsaitlər | 14.40% | 259 | 177 | - | - | - | - | 436 |
| Müştərilərə verilmiş kreditlər | 19.89% | 5,361 | 9,595 | 28,723 | 10,673 | 217 | - | 54,569 |
| Satıla bilən investisiyalar | 13.82% | 4,901 | - | 164 | - | - | - | 5,065 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan aktivlər | | 10,521 | 9,772 | 28,887 | 10,673 | 217 | - | 60,070 |
| Banklardan alınacaq vəsaitlər | 2.95% | - | - | 2,514 | - | - | - | 2,514 |
| Cəmi müxtəlif dərəcələrlə faiz hesablanan aktivlər | | - | - | 2,514 | - | - | - | 2514 |
| Cəmi faiz hesablanan aktivlər | | 10,521 | 9,772 | 31,401 | 10,673 | 217 | - | 62,584 |
| Nağd pul və ARMB-dakı qalıqlar | | 5,266 | - | - | - | - | 4,561 | 9,827 |
| Banklardan alınacaq vəsaitlər | | 1,491 | - | - | - | - | - | 1,491 |
| Digər aktivlər | | 265 | 17 | - | - | - | - | 282 |
| | | 17,543 | 9,789 | 31,401 | 10,673 | 217 | 4,561 | 74,184 |
| **ÖHDƏLİKLƏR** | | | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınmış kreditlər | | 899 | 331 | 1,155 | 3,171 | 33 | - | 5,589 |
| Müştəri hesabları | 13.27% | 855 | 4,797 | 15,942 | 9,674 | 28 | 26 | 31,322 |
| Buraxılmış borc qiymətli kağızları | 14.00% | - | - | 1,140 | 2,280 | - | - | 3,420 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan öhdəliklər | | 1,754 | 5,128 | 18,237 | 15,125 | 61 | 26 | 40,331 |
| Banklardan və digər maliyyə təşkilatlarından alınmış kreditlər | | 11 | 97 | 435 | 5,924 | 2,372 | - | 8,839 |
| Cəmi müxtəlif dərəcələrlə faiz hesablanan öhdəliklər | | 11 | 97 | 435 | 5,924 | 2,372 | - | 8,839 |
| Cəmi faiz hesablanan öhdəliklər | | 1,765 | 5,225 | 18,672 | 21,049 | 2,433 | 26 | 49,170 |
| Banklardan və digər maliyyə təşkilatlarından alınmış kreditlər | | 37 | - | - | - | - | - | 37 |
| Müştəri hesabları | | 13,362 | - | - | - | - | - | 13,362 |
| Ödənilməli cari mənfəət vergisi | | - | 270 | - | - | - | - | 270 |
| Digər öhdəliklər | | 149 | 113 | - | - | - | 166 | 428 |
| Maliyyə zəmanəti müqavilələri | | 175 | 1,039 | 2,227 | - | - | - | 3,441 |
| Akkreditivlər | | - | - | 2,396 | - | - | - | 2,396 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | | 3,184 | - | - | - | - | - | 3,184 |
| | | 18,672 | 6,647 | 23,295 | 21,049 | 2,433 | 192 | 72,288 |
| Likvidlik intervalı | | (1,129) | 3,142 | 8,106 | (10,376) | (2,216) | | |
| Sabit dərəcəli alətlər üçün faiz dərəcəsinin həssaslıq intervalı | | 8,767 | 4,644 | 10,650 | (4,452) | 156 | | |
| Dəyişkən dərəcəli alətlər üçün faiz dərəcəsinin həssaslıq intervalı | | (11) | (97) | 2,079 | (5,924) | (2,372) | | |
| Faiz dərəcəsinin həssaslıq intervalı | | 8,756 | 4,547 | 12,729 | (10,376) | (2,216) | | |
| **Məcmu faiz dərəcəsinin həssaslıq intervalı** | | 8,756 | 13,303 | 26,032 | 15,656 | 13,440 | | |

**Bazar riski**

Bazar riski faiz dərəcəsi riskini, valyuta riskini və Bankın məruz qaldığı digər qiymət risklərini əhatə edir. Bank tərəfindən riskin ölçülməsi üsullarına və ya 2007-ci ildə məruz qaldığı risklərə heç bir dəyişiklik olmamışdır.

Banka daxil olan müəssisələr sabit və dəyişkən dərəcələrlə vəsaitlər borc götürdüyündən Bank faiz dərəcəsi riskinə məruz qalır. Bank sabit və dəyişkən dərəcəli borcları qarışıq şəkildə saxlamaqla riski idarə edir.

AÖİK həmçinin faiz dərəcəsini və bazar risklərini Bankın faiz dərəcəsi mövqeyinə uyğunlaşdırmaqla idarə edir. Həmin faiz dərəcəsi mövqeyi Bankı müsbət faiz marjası ilə təmin edir. Aktiv və öhdəliklərin idarəetmə departamenti Bankın hazırkı maliyyə fəaliyyətinin monitorinqini həyata keçirir, Bankın faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun Bankın rentabelliyinə təsirini qiymətləndirir.

Bankın kredit müqavilələrinin əksəriyyətinə və digər maliyyə aktivlərinə və öhdəliklərinə ya dəyişkən faiz hesablanır ya da borc verənin istəyindən asılı olaraq faiz dərəcəsini dəyişmək imkanı verən bəndlər daxil edilir. Bank faiz dərəcəsi marjasına nəzarət edir və nəticədə özünün mühüm faiz dərəcəsi riskinə və ya nağd vəsaitin axını riskinə məruz qaldığını düşünmür.

**Faiz dərəcəsi riski**

Bank bazar şəraitində mənfi dəyişikliklərdən irəli gələn potensial zərərləri vaxtaşırı qiymətləndirməklə ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Aktiv və öhdəliklərin idarəetmə departamenti Bankın hazırkı maliyyə fəaliyyətinin monitorinqini həyata keçirir, Bankın ədalətli dəyərin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun Bankın rentabelliyinə təsirini qiymətləndirir.

Aşağıdakı cədvəldə "dəyişkən risk üzrə ən mümkün dəyişikliklər" əsasında müəyyən edilmiş faiz dərəcəsi riskinin həssaslıq təhlili verilmişdir. Bu dəyişikliklərin dərəcəsi rəhbərlik tərəfindən müəyyən edilir və əsas idarəedici heyətə təqdim edilən risk hesabatlarına əks etdirilir.

Vergidən əvvəlki mənfəətin təsiri:

| | 31 dekabr 2007-ci il | | 31 dekabr 2006-cı il | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Aktivlər:** | | | | |
| Banklardan alınacaq vəsaitlər | 51 | (51) | 44 | (44) |
| Müştərilərə verilmiş kreditlər | 1,222 | (1,222) | 479 | (479) |
| Satıla bilən investisiyalar | 22 | (22) | 52 | (52) |
| **Öhdəliklər:** | | | | |
| Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər | (568) | 568 | (121) | 121 |
| Müştəri hesabları | (629) | 629 | (415) | 415 |
| Buraxılmış borc qiymətli kağızları | (62) | 62 | (31) | 31 |
| **Vergidən əvvəl mənfəətə xalis təsiri** | 36 | (36) | 8 | (8) |

Səhmdar kapitalına təsiri:

| | 31 dekabr 2007-ci il | | 31 dekabr 2006-cı il | |
|---|---|---|---|---|
| | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** |
| **Aktivlər:** | | | | |
| Banklardan alınacaq vəsaitlər | 40 | (40) | 34 | (34) |
| Müştərilərə verilmiş kreditlər | 953 | (953) | 374 | (374) |
| Satıla bilən investisiyalar | 17 | (17) | 41 | (41) |
| **Öhdəliklər:** | | | | |
| Banklara və digər kredit təşkilatlarına ödənilməli vəsaitlər | (443) | 443 | (94) | 94 |
| Müştəri hesabları | (491) | 491 | (324) | 324 |
| Buraxılmış borc qiymətli kağızları | (48) | 48 | (24) | 24 |
| **Vergidən əvvəl mənfəətə xalis təsiri** | 28 | (28) | 6 | (6) |

## Valyuta riski

Valyuta riski xarici valyuta məzənnəsinin dəyişməsi nəticəsində maliyyə aktivinin dəyərinin dəyişməsi riskidir. Xarici valyuta məzənnəsindəki dəyişikliklər Bankın maliyyə durumuna və nağd pul vəsaitlərinin hərəkətinə təsir edir.

AÖİK hazırkı və proqnozlaşdırılan makro-iqtisadi göstəriciləri nəzərə alaraq valyuta riskinə açıq valyuta mövqeyini idarə etməklə nəzarət edir. Xəzinədarlıq departamenti ARMB-nın tələblərini və təlimatlarını yerinə yetirmək üçün Bankın açıq valyuta mövqeyinin gündəlik monitorinqini həyata keçirir.

Xarici valyutanın mübadilə məzənnəsinin Banka təsiri aşağıdakı cədvəldə təqdim olunmuşdur:

| | Azərbaycan manatı | ABŞ dolları 1 ABŞ dolları= 0.8453 manat | AVRO 1 AVRO= 1.2450 manat | Digər valyutalar | 31 dekabr 2007-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Nağd pul və ARMB-dakı qalıq vəsaitlər | 8,657 | 3,669 | 378 | 17 | 12,721 |
| Banklardan alınacaq vəsaitlər | - | 2,861 | 2,221 | 43 | 5,125 |
| Müştərilərə verilmiş kreditlər | 69,473 | 48,667 | 852 | - | 118,992 |
| Satıla bilən investisiyalar | 2,160 | - | - | - | 2,160 |
| Əmlak və avadanlıq | 12,079 | - | - | - | 12,079 |
| Digər aktivlər | 496 | 229 | 179 | 16 | 920 |
| CƏMİ AKTİVLƏR | 92,865 | 55,426 | 3,630 | 76 | 151,997 |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Banklara ödənilməli vəsaitlər | 29,282 | 25,513 | 3,086 | - | 57,881 |
| Müştəri hesabları | 36,306 | 25,883 | 2,229 | 34 | 64,452 |
| Buraxılmış borc qiymətli kağızları | 6,153 | - | - | - | 6,153 |
| Cari mənfəət vergisi öhdəlikləri | 263 | - | - | - | 263 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 1,945 | - | - | - | 1,945 |
| Digər öhdəliklər | 771 | 87 | 21 | 5 | 884 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | 74,720 | 51,483 | 5,336 | 39 | 131,578 |
| **AÇIQ BALANS MÖVQEYİ** | 18,145 | 3,943 | (1,706) | 37 | |

| | Azərbaycan manatı | ABŞ dolları 1 ABŞ dolları= 0.8714 manat | AVRO 1 AVRO= 1.1471 manat | Digər valyutalar | 31 dekabr 2006-cı il Cəmi |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Nağd pul və ARMB-dakı qalıq vəsaitlər | 5,067 | 4,678 | 59 | 23 | 9,827 |
| Banklardan alınacaq vəsaitlər | - | 1,893 | 2,500 | 37 | 4,430 |
| Müştərilərə verilmiş kreditlər | 25,048 | 21,526 | - | - | 46,574 |
| Satıla bilən investisiyalar | 5,179 | - | - | - | 5,179 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 4,332 | - | - | - | 4,332 |
| Satış üçün saxlanılan qeyri-dövriyyə aktivləri | 541 | - | - | - | 541 |
| Digər aktivlər | 35 | 261 | 14 | - | 310 |
| CƏMİ AKTİVLƏR | **40,202** | **28,358** | **2,573** | **60** | **71,193** |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Banklara ödənilməli vəsaitlər | 3,626 | 6,313 | 2,295 | - | 12,234 |
| Müştəri hesabları | 16,068 | 25,108 | 588 | 17 | 41,781 |
| Buraxılmış borc qiymətli kağızları | 3,103 | - | - | - | 3,103 |
| Cari mənfəət vergisi öhdəlikləri | 270 | - | - | - | 270 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 404 | - | - | - | 404 |
| Digər öhdəliklər | 341 | 64 | 24 | - | 429 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **23,812** | **31,485** | **2,907** | **17** | **58,221** |
| **AÇIQ BALANS MÖVQEYİ** | **16,390** | **(3,127)** | **(334)** | **43** | |

**Valyuta riskinin həssaslığı**

Aşağıdakı cədvəldə ABŞ dollarının və AVRO-nun manata nisbətdə 10% artmasına və ya azalmasına qarşı Bankın həssaslığı öz əksini tapmışdır. Xarici valyuta riskinin əsas idarəedici heyətə hesabat edilməsi üçün istifadə edilən həssaslıq dərəcəsi 10%-dir və bu dərəcə xarici valyutanın mübadilə məzənnəsində mümkün dəyişikliklərlə bağlı rəhbərliyin qiymətləndirmələrini əks etdirir. Həssaslıq təhlilinə yalnız xarici valyuta ilə ifadə edilmiş pul vəsaitləri və xarici valyuta məzənnəsindəki 10% dəyişikliyi əks etdirmək üçün dövrün sonunda onların köçürülməsi üzrə düzəlişlər daxildir. Həssaslıq təhlilinə kənar kreditlər eləcə də Bank daxilində xarici valyuta əməliyyatları üçün verilən kreditlər daxildir. Burada kreditlərin denominasiyası kreditorun və ya borcalanın valyutasından fərqli valyuta ilə aparılır.

| | **31 dekabr 2007-ci il** | | **31 dekabr 2006-cı il** | |
|---|---|---|---|---|
| | **Manat/ABŞ dolları +10%** | **Manat/ABŞ dolları -10%** | **Manat/ABŞ dolları +10%** | **Manat/ABŞ dolları -10%** |
| Mənfəət və ya zərərə təsiri | 395 | (395) | (313) | 313 |

| | **31 dekabr 2007-ci il** | | **31 dekabr 2006-cı il** | |
|---|---|---|---|---|
| | **Manat/Avro +10%** | **Manat/Avro -10%** | **Manat/Avro +10%** | **Manat/Avro -10%** |
| Mənfəət və ya zərərə təsiri | (171) | 171 | (34) | 34 |

Həssaslıq analizi ilə bağlı məhdudiyyətlər

Yuxarıdakı cədvəllər digər ehtimallarda dəyişikliklər olmadıqda əsas ehtimalların dəyişməsinin təsirini əks etdirir. Əslində cədvəldə qeyd edilən ehtimallarla digər faktorlar arasında qarşılıqlı əlaqə mövcuddur. Qeyd etmək lazımdır ki, cədvəldəki həssaslıq göstəriciləri xətti funksiya üzrə hesablanmır və valyuta məzənnəsinin daha çox və ya az dəyişməsinə qarşı həssaslığı cədvəldə göstərilən rəqəmlər əsasında birbaşa interpolyasiya və ekstrapolyasiya edilə bilməz.

Həssaslıq analizi Bankın aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Bankın maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələn, Bankın maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçəndə Bankın rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən sığortalayıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, ehtimallardakı dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər, aktivlər isə balans hesabatında bazar qiyməti ilə dəyərləndiriləcək. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi xalis aktivlərin dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıda qeyd edilən həssaslıq təhlilləri ilə bağlı digər məhdudiyyətlərə aşağıdakılar daxildir: yaxın dövrdə mümkün bazar dəyişiklikləri ilə bağlı hər hansı əminlik olmadan qabaqcadan verilən və yalnız Bankın mövqeyini əks etdirən potensial riskin nümayiş etdirilməsi üçün hipotetik bazar dəyişikliklərindən istifadə və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət etməsi ehtimalı.

**Digər qiymət riskləri**

Bank səhmdar kapitala investisiyalardan yaranan səhm məzənnəsi risklərinə məruz qalır. Səhmdar kapitalına investisiyalar ticarət məqsədlərindən daha çox strateji məqsədlər üçün saxlanılır. Bank bu investisiyalarla fəal ticarət aparmır və bu investisiyalar üzrə əhəmiyyətli mövqeyə malik deyildir.